# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 12 (3336) Cümə axşamı / 4-5 fevral 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Zod qızıl yatağı məsələsində Mikoyan əli

*Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın şanlı ordusunun 44 günlük müzəffər yürüşündən sonra imzalanmış 10 Noyabr razılaşmasına əsasən noyabrın 25-də Kəlbəcər rayonu da işğaldan azad edildi. Ermənistan Söyüdlü (Zod) yatağının Azərbaycanın həmin rayonunun ərazisinə düşən hissəsini təhvil verməkdən imtina etməyə başladı. Bir müddət sonra Azərbaycan Ordusunun müdaxiləsi ilə məsələ həllini tapdı... Bugünədək hələ də Ermənistanın bəzi müxalif siyasi dairələri guya sovet dövründən qızıl yatağının Kəlbəcərdəki hissəsinin daha çoxunun ermənilərə məxsus olduğunu iddia edirlər.*



**Maksim Musayev,**
sabiq deputat

*Həmin yatağın daha çox hissəsi Kəlbəcər ərazisində olmalıydı...*

Səh. 3

# Göyçəlilərin Hadrut köçü



**Ermənistan ərazisinin Göyçə mahalından olan 600 ailənin işğaldan azad olunan Hadrut rayonuna köçmək istəyi ilə bağlı ölkə başçısına müraciəti ictimaiyyət, ekspert və iş adamları tərəfindən maraqla qarşılanıb. Hadruta köçmək istəyən əhalinin hədəfləri müxtəlif aspektlərdə təhlil olunsa da, hədəflər eynidir. Bu barədə "Həftə içi" qəzetinə danışan Göyçə mahalının sakini, iqtisadçı, iş adamı Mürvət Həsənli məsələ ilə bağlı maraqlı məqamlara diqqət çəkib.**

**Mürvət Həsənli bildirir ki, erməni vandallarının təzyiqi ilə el-obasını tərk etməyə məcbur qalan, 30 ildir Azərbaycan ərazisinin ayrı-ayrı şəhərlərində məskunlaşan Ermənistan camaatı bu gün Hadruta köçmək istəyir. Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərə köçürülmələr, təbii olaraq, ölkə başçısının sərəncamı, tapşırığı ilə gerçəkləşəcək. Bu, təsdiqini taparsa, ölkəmizin, dövlətimizin xeyrinə olar.**

**Hadruta köçmək istəyən göyçəlilər burada zamanında Ermənistanda öz dədə-babalarının gördüyü kənd təsərrüfatı işləri ilə məşğul olmaq istəyirlər: "Azərbaycan əhalisinin yaşadığı indiki Ermənistanda Zəngibasar deyilən bir mahal var idi. Həmin yerlərin azərbaycanlı əhalisi Zaqafqaziyada, Moskvada kənd təsərrüfatı mallarının, meyvə-tərəvəzlərin satışında böyük bazarlar fəth eləmişdilər.**









Göyçə mahalında əhalimiz maldarlıqla məşğul olurdu və bu sahə xüsusilə inkişaf etmişdi. Bir sözlə, biz qərbi azərbaycanlılar kənd təsərrüfatı işlərini çox yaxşı bacarırıq. İşğaldan azad olunmuş ərazilərə köçməklə orada kənd təsərrüfatı işlərinin inkişafına böyük töhfə verib, dövlətimiz üçün də çox xeyirli işlər görmüş olarıq. Bizim dədə-baba yurdumuz indiki Ermənistan ərazisində qalıb. İnşallah, indiki şəraitə uyğun olaraq bu gün Göyçə əhalisinin Hadruta köçmək istəyi təsdiqini tapar və bizim öz evindən didərgin salınan Ermənistan camaatının da yaylağa getməyə yeri olar. Təbii ki, biz nə vaxtsa Göyçəyə, Vediyə, Ağbabaya, Dərələyəzə, digər ərazilərimizə mütləq qayıdacağıq. Hələlik Hadruta getsək yaxşı olar. Bir iş adamı olaraq orada böyük iş yerlərinin açılmasına söz verirəm". M.Həsənli bildirir ki, əhalimizin Azərbaycan daxilində hər hansı ərazilərə köçüb yaşayışını qurması bizim daxili işimizdir.

"Bizim Dağlıq Qarabağ adında problemimiz yoxdur. Cənab Prezident demişkən, "status-kvo" da gorbagor oldu. İşğaldan azad olunmuş ərazilərdə aparılacaq bərpa işləri ilə bağlı Prezidentin çıxışlarına əsaslanıb yaxın 6 ay, 1 ildə köçürülmələrin mümkün ola biləcəyini düşünürəm. Eləcə də Hadruta köçürülmə ilə bağlı diplomatik müstəvidə yarana biləcək çətinliklər görmürəm. Dağlıq Qarabağda olan sühməramlıların vəzifəsi sülhü qorumaqdır. Və düşünürəm ki, yaxın müddətdə insanlarımızın Xocalı, Ağdərə, Xocavənd və Xankəndiyə rahat gediş-gəlişi, yaşayışı da təmin olunacaq. Bu yerlər əzəli Azərbaycan torpaqlarıdır və işğaldan azad edilib. Biz Azərbaycanın bütün torpaqlarında - Göyçədə, İrəvanda, Vedidə yaşamağı düşünürük, hədəfimiz odur".

■ **İqtisadçı, iş adamı Koroğlu Qasımov "Həftə içi"nə bildirir ki, Göyçə mahalının Nərimanlı kənd sakinləri qaçqınlıq ərəfəsində daha çox Bakı və Gəncə şəhərlərində məskunlaşıblar.** Torpaqlar azad olunandan sonra isə ölkə başçısına müraciət edərək Hadrut rayonuna köçürülmələrini xahiş ediblər. K.Qasımovun sözlərinə görə, həmin kəndin əhalisi, ağsaqqal və ağbirçəkləri öz el-obasını tərk edəndən sonra uzun illər fərqli təbii mühitdə alışmağa çalışıb, buna görə böyük çətinliklər çəkiblər.

Qarabağda, Hadrutda olmadığını deyən K.Qasımov, məhz Hadruta köçmək istəklərinin ağsaqalların düşünülmüş şəkildə gəldiyi qənaət olduğunu deyib. Onun sözlərinə görə, Hadrut rayonunun havası, təbii iqlim şəraiti dədə-baba torpaqlarına oxşar olduğu üçün ağsaqqallar yaşamaq üçün həmin regionu seçiblər.

K.Qasımov qeyd edib ki, artıq Hadruta köçmək istəyən insanların şəxsiyyət vəsiqələrinin surətləri, xüsusi ərizələri ilə birlikdə toplanaraq ölkə başçısına ünvanlanıb.

"Yəqin ki, bizə verilən bu fürsətdən istifadə edib, ailələrimiz ölkə başçımızın köməkliyi ilə köçüb Hadrutda yaşayacaq. Ermənilərin dilini, xasiyyətini biz daha yaxşı bilirik, uzun illər onlarla birlikdə yaşamşıq. Başqa dinin daha çox təbliğ olunduğu yerdə biz öz dinimizi, dilimizi qoruyub saxlamışıq.

*Hadrut rayonunun havası, təbii iqlim şəraiti dədə-baba torpaqlarına oxşar olduğu üçün ağsaqqallar yaşamaq üçün həmin regionu seçiblər*

Səh. 2

XÜSUSİ MÜXBİR



**Şöhrət Eyvazov,**
İT-nin böyük redaktoru,
Qarabağ müharibəsi veteranı

■ Bərdəyə atılan "Smerç" raketlərinin törətdiyi dəhşətlə müqayisəolunacaq heç nə görməmişəm

■ Hansısa xarici media orqanına "yaşıl", bizə isə "qırmızı" işıq yandırılmasını təəssüflə qarşılayırdıq...

■ Ermənistan mediasının dezinformasiyaların qarşısını almaq üçün daha sistemli addımlar atılmaqda bəzən gecikmələr olurdu

Səh. 6

GÜNÜN FOTOSU...



**Aleksey Navalni hökm oxunarkən...**

GÜNÜN SİTATI

*"Azərbaycanın əmək bazarında şəffaflaşma nəticəsində məcburi dövlət sosial sığorta ödənişləri üzrə daxilolmalar artıb və DSMF-nin büdcə asılılığı azalıb. 2017-ci ildə büdcədən maliyyələşmənin xüsusi çəkisi 38,1% idisə, 2020-ci ildə bu göstərici 25%-dən azdır"*



**Mikayıl Cabbarov,**
İqtisadiyyat naziri

KARİKATURA





**COVID-19 vaksini müharibəsi...**

## Azərbaycanda biznesi qeydiyyatdan keçirmək asandır

**Kuanış Kalijanov,**
qazaxıstanlı iş adamı

Şuşanın təhlükəsizlik sistemləri sahəsində dizayn təcrübəmizi təklif edirik.

Səh. 7

STATİSTİKA



**2021-ci ilin əvvəlindən Azərbaycanda qeydiyyata alınmış domen adlarının sayı 1380-ə çatıb.**

Ümumilikdə Azərbaycanda 36 478 domen adı qeydiyyata alınıb. 2021-ci il yanvar ayı ərzində 996 domen adı silinib.



Səh. 5

## Mərkəzi Bank vəsaitlərini necə formalaşdırır?

## PREZİDENTİN İŞ GÜNÜ



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri videoformatda qəbul edib.**

Mark Şnayer ölkəmizdə digər dini və etnik icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasına yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Müsəlman ölkələri arasında ən böyük yəhudi icmasının Azərbaycanda yaşadığını vurğulayan Mark Şnayer Prezident İlham Əliyevin digər icmalarla yanaşı, yəhudilərə göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı yəhudilərin ölkəmizin dəyərli vətəndaşları olduqlarını qeyd etdi, digər dini və etnik icmaların nümayəndələri kimi onların da Azərbaycanda əsrlər boyu mehribanlıq, qardaşlıq və dostluq şəraitində yaşadıqlarını bildirdi.

Söhbət zamanı mədəniyyətlərarası dialoq sahəsində Azərbaycanla ABŞ əlaqələrinin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

***

**Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Arif Qafar oğlu Rəhimzadə "Şərəf" ordeni ilə təltif edilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.**

***

**Timurçin İlyas oğlu Əfəndiyev Bakı Xoreoqrafiya Akademiyasının rektoru vəzifəsindən azad edilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.**

***

**Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin təşkili haqqında Sərəncam imzalayıb. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilib ki, Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin ərazi yurisdiksiyasını müəyyən etsin.**

Nazirlər Kabinetinə Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin fəaliyyəti üçün zəruri şərait yaradılması məqsədilə onun bina, avadanlıq, rabitə, nəqliyyat və digər təşkilati-texniki vasitələrlə təmin edilməsi ilə bağlı tədbirlər görmək, maliyyə təminatı Ədliyyə Nazirliyi vasitəsilə həyata keçirilən məhkəmə aparatları işçilərinin ümumi sayının artırılmasını təmin etmək və Sərəncamdan irəli gələn digər məsələlərin həlli tapşırılıb. Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# MEDİA-nın seminarları davam edir



**Medianın İnkişafı Agentliyinin (MEDİA) "ADA" Universiteti ilə birgə təşkil etdiyi "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda seminarlar davam edir.**

Agentlikdən hafta.az-a verilən xəbərə görə, Universitetin İxtisasartırma Proqramının mütəxəssisləri tərəfindən aparılan seminarlarda dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətləri rəhbərləri, ictimaiyyətlə əlaqələr və mətbuatla iş üzrə məsul əməkdaşları iştirak edirlər. Seminarlarda məqsəd dövlət və ictimai sektor qurumlarının media subyektləri ilə əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı kommunikasiya əlaqələrinin təkmilləşdirilməsi, eləcə də müasir media mühitində ictimaiyyəti məlumatlandırma mexanizmlərinin daha səmərəli qurulmasıdır.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC 1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611 M/h: AZ37NABZ01350100000000001944 S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Gündəm

# "Biz Azərbaycanda ən qabaqcıl texnologiyaları tətbiq etmək istəyirik"

*"Biz xalqımız, ölkəmiz üçün çox çətinliklər yaradan bu əsas məsələni həll etdikdən sonra, - bu məsələ həm də dünyada ən böyük haqsızlıqlardan biri idi, - Azərbaycanın inkişafı daha da sürətli olacaq. Buna baxmayaraq, hətta işğal illəri ərzində Azərbaycan uğurla inkişaf etmişdir, sənayeni və müasir texnologiyaları inkişaf etdirmişdir".*

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də İtaliyanın "Maire Tecnimont Group" şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən səsləndirib.



## Azərbaycan azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirləri görəcək

### Qeyri-enerji sənayemiz 12,5 faiz artıb

**Dövlət başçısının sözlərinə görə, indi tariximizin yeni səhifəsidir. Azərbaycan azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirləri görəcək. Bu, asan olmayacaq, çünki hər şey məhv edilib və işğaldan azad olunmuş əraziləri ziyarət etdikdə biz hər şeyin dağıldığını müşahidə edə bilərik:**

"Bütün binalar, zavodlar, tarixi abidələr, sosial infrastruktur yerlə-yeksan edilib. Beləliklə, biz hər şeyi sıfırdan etməli olacağıq. Buna görə də, əlbəttə, fəaliyyətimizin bu istiqaməti üzrə bizə yaxşı tərəfdaşlar lazım olacaq. Əlbəttə, sizin Azərbaycandakı fəaliyyətiniz və həyata keçirdiyiniz layihələr bizə sənayemizin qeyri-enerji sektorunu artırmağa kömək edir. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, pandemiyaya və Azərbaycanda keçən il olan iqtisadi azalmaya baxmayaraq, - o, 4,3 faiz olmuşdur, - bizim qeyri-enerji sənayemiz 12,5 faiz artmışdır. Bu, sənayeləşmə proqramının əsl nümayişidir və "Maire Tecnimont" kimi aparıcı beynəlxalq şirkətlə əməkdaşlıq, əlbəttə ki, bizə kömək etdi və gələcəkdə də kömək edəcək".

Dövlət başçısı vurğulayıb ki, "Maire Tecnimont Group" şirkəti Azərbaycanda dəyəri 1,6 milyard avrodan çox olan layihələrə cəlb olunub və hesab edirəm ki, bu belə də davam edəcək:

"Çünki siz artıq bizim ölkəyə sadiq olduğunuzu nümayiş etdirmisiniz. Sizin fəaliyyətinizdə yer alan yerli vətəndaşların sayı ilə bağlı dediklərinizi sizin sadiqliyinizi və Azərbaycanda uzunmüddətli strategiyanızı nümayiş etdirir. Çünki burada uzun müddət ərzində fəaliyyət göstərməyi planlaşdırmasaydınız bunu etməzdiniz. Başlanğıcda yalnız italyanlar işləyirdi, indi yerli kadrların sayı 70 faizdən çoxdur. Beləliklə, siz təlimlərə töhfə vermisiniz və bu da çox önəmlidir".

### İtaliya və Azərbaycan strateji tərəfdaşlardır

**Prezident bildirib ki, İtaliya və Azərbaycan arasında münasibətlər uğurla inkişaf edir:**

"Bir il bundan əvvəl mənim ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik. Həmçinin keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir.

Beləliklə, biz ümid edirik ki, italyan şirkətləri bizim ərazilərimizin bərpası ilə bağlı layihələrdə çox fəal olacaqlar. Sizə deyə bilərəm ki, artıq bərpa işləri və tikinti işləri ilə bağlı bir neçə italyan şirkəti dəvət olunub. Əminəm ki, onların sayı daha da artacaq. Çünki mən artıq dəfələrlə çıxışlarımda demişəm və bir daha qeyd etmək istəyirəm ki, biz yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Yaxşı ingilis deyimi var: yaxşı dost dar gündə tanınar. Bu çətin anda siz dostlarınızın həqiqətən kimin olduğunu anlayırsınız. Bu, çox vacib və dəyərli bir məsələdir".

### İtaliya-Azərbaycan Universiteti təsis ediləcək

**Dövlət başçısı planlar barədə də söz açıb. Bildirib ki, bu məsələ Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi ilə bağlıdır. Biz artıq yer ayırmışıq:**

"Artıq universitetin yaradılması ilə bağlı məsələ üzərində işlər başlayıb. Bu məsələ, həmçinin hökumət səviyyəsində razılaşdırılmışdır. Ümid edirəm ki, gərgin çalışsaq bu il biz bu işə başlaya bilərik. Çünki bu, bizim dostluğumuzun yaxşı göstəricisi olacaq və eyni zamanda, biz bu müəssisələri, bu sənaye sahələrini idarə edə bilək deyə bizim iqtisadiyyatın gələcək üçün tələb etdiyi ixtisaslar üzrə gənc azərbaycanlıların hazırlanması və təlim keçməsi məsələsində də çox önəmlidir. Bu, həmçinin ölkələrimiz arasında sıx dostluq əlaqələrinin gücləndirilməsinə də kömək edəcək".

### "Yaşıl enerji zonası"

**Dövlət başçısı baş icraçı direktor Pierroberto Folgieronun "yaşıl kimya" adlandırdıqları sahənin inkişafı ilə bağlı fikirlərinə də münasibət bildirib:** "Həmçinin siz "yaşıl kimya"nı qeyd etdiniz. Bildiyimə görə, bu, texnoloji inkişaf baxımından yenilikdir. Bu, həmçinin bizim gündəliyimizə tam uyğundur, çünki əvvəlki illərdə biz çox işlər görməli idik ki, həyat tərzini yaxşılaşdıraq və xüsusən də bütün çirklənmiş sahələri təmizləyək.

Xüsusən də burada, Bakıda və Abşeron yarımadasında. Həmin ərazilər yüz ildən artıqdır ki, çirkləndirilib. Biz böyük sərmayələr yatırdıq, torpaqlarda çoxlu rekultivasiya işləri apardıq. Ətraf mühitin qorunmasına aid bir çox məsələlərlə məşğul olduq. Bu, davam edəcək. Buna görə, "yaşıl enerji" konsepsiyası, əsasən, Azərbaycan üçün irəliyə aparan yoldur. Bu, bütün ölkəyə və xüsusən də azad olunmuş ərazilərə aiddir. Mən artıq bəyan etmişəm ki, azad olunmuş bütün ərazilər "yaşıl enerji zonası"nı təşkil edəcək. Onlar Azərbaycanın böyük hissəsini təşkil edir. Eyni zamanda, biz orada "ağıllı şəhər", hətta "ağıllı kənd" adlanan müasir texnologiyaları tətbiq edəcəyik. Bu, həmçinin Azərbaycanın yenidənqurmaya, müasirləşməyə və texnoloji tərəqqiyə ehtiyac duyduğumuz digər bölgələri üçün yaxşı nümunə olacaq.

Biz Azərbaycanda ən qabaqcıl texnologiyaları tətbiq etmək istəyirik. Çünki ölkə müasirləşməlidir, intellektual baxımdan bacarıqlı olmalıdır və sənaye sahəsində gücləndirilməlidir ki, biz neft və qaz qiymətlərindən asılı olmayaq. Bu, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Təbii ki, sənaye inkişafı prosesi zamanı, qeyd etdiyiniz kimi, şirkətiniz ilə Azərbaycan arasında strateji birlik çox alqışlanacaq. Müasirləşmək, irəliyə doğru getmək və inkişaf etmək üçün bizim bu cür güclü tərəfdaşa ehtiyacımız var.

Mən bir daha, xüsusi olaraq, qeydlərinizdən birinə istinad etmək istəyirəm. Bu, şirkətinizdə yerli işçilərin olması ilə bağlıdır. Bu, dostluğun əsl rəmzidir və dostluğu nümayiş etdirir. Mən buna görə sizə təşəkkürümü bildirmək istəyirəm və əminliyimi ifadə edirəm ki, biz şirkətinizlə və tərəfdaşlarınızla birgə işimizi davam edəcəyik. Əminəm ki, buradakı imkanlar, İtaliyaya olan səmimi münasibətlər barədə ölkənizin iş adamları nə qədər çox bilərsə, bir o qədər çox İtaliya şirkətləri bura gələcək. Biz bunu istəyirik".

# Göyçəlilərin Hadrut köçü



◂ əvvəli 1-ci səhifədə

Hesab edirəm ki, Göyçə mahalının - bizim kəndin və digər kəndlərin camaatı o yerlərə köçürülsə, Qarabağda, Xankəndində qalan ermənilər ya sülhə gəlməyə məcbur olacaqlar, ya da çıxıb gedəcəklər. Çünki bizim camaat ermənilərin şəxsiyyətsizliyini, qorxaqlığını, əqidəsizliyini yaxşı bilir. Biz onların mənfur xarakterini bildiyimiz üçün onlarla necə davranacağımızı da yaxşı bilirik".

K.Qasımov hesab edir ki, bu köçürülmə bölgə üçün böyük əhəmiyyətə malikdir. Onun sözlərinə görə, iş adamı olaraq işğaldan azad olunmuş həmin ərazilərdə yeni bərpa işlərinin başladılmasına dəstək verə bilərlər. "Biz həmin ərazilərdə camaata hansısa kənd, qəsəbə verilərsə, orada maldarlığın inkişafı ilə yanaşı, orta məktəblərin, mədəniyyət evlərinin, uşaq bağçalarının tikilməsi prosesində iş adamlarının gücünü birləşdirməklə uğurla işlərə imza ata bilərik".

■ **Politoloq Qabil Hüseynli Göyçə camaatının Hadruta köçməklə bağlı müraciətini müsbət qarşıladığını deyir. Onun fikrincə, Azərbaycan hökuməti nümayəndələri o müraciətə müsbət yanaşmalıdır.**

Politoloq bildirib ki, 1988-ci ildə minlərlə azərbaycanlı öz malmülkünü indiki Ermənistan ərazisində qoyub Azərbaycana gəliblər: "Bu gün həmin insanların bir qisminin Hadruta köçürülməsi qayıdış problemlərinin ilk addımları ola bilər. Düşünürəm ki, Hadruta köçən əhali ermənilərin fitnəkarlıqlarına qarşı daha tolerant siyasət apara bilər. Əlbəttə ki, onların arasında erməni dilini bilən insanlar var. Ermənilərlə daha tez dil tapıb, iki xalq arasında münasibətlərin qurulmasına töhfə verə bilərlər.

Könüllü surətdə azad olunmuş ərazilərə gedib orada yaşamaq istəyən və həm də eyni kənddən olan adamların gedişi zənnimcə, daha effektli ola bilər. Bir-birini tanıyan, bir-biri ilə qohum-əqrəba olan ailələrin həmin ərazilərə köçürülməsi, birgə təsərrüfat yaratmaq və fors-major situasiyalarda bir-birini müdafiə etmək baxımından uğurlu ola bilər. Bu mənada köç siyasətində Qərbi Azərbaycandan qovulmuş əhalinin ölkə daxilində vaxtilə ermənilərin yaşadığı yerlərə köşürülməsinə çox müsbət yanaşıram".

Politoloq bildirir ki, Azərbaycan bu köçürülməni tez aparmalıdır. Əhalinin azad olunmuş o yerlərə köçürülməsinin üstünlükləri çoxdur: "Ərazilərin minadan təmizləndiyi və kommunikasiya xətlərinin çəkilişi başa çatandan sonra həmin yerlərə toplum şəkildə köçürmələrə başlamaq lazımdır. Məsələn, Şuşada Azərbaycan komendaturası var və Prezidentin xüsusi nümayəndəsi də təyin olunub. Deməli, köç siyasəti Şuşadan da başlaya bilər, Hadrutdan da, Ağdamdan da. Ağdamda əhali azad olunmuş ərazilərin becərilməsinə başlayıb. Ən azı, 1200 hektar sahəsinə taxıl səpiblər. Əhali özü həmin ərazilərin münbit sahələrindən istifadə edib, kənd, heyvandarlıq təsərrüvatı yaratmaq istəyir.

Amma bu da planlı şəkildə olmalıdır. Kim gəldi hektarlarla ərazi götürə bilməz. Təbii ki, orada yaşayan insanların yaşadığı ərazilər, pay torpaqları var. Bunlar nəzərə alınmaqla, Qarabağda birinci növbədə torpağa bağlı adamlar, torpaqda yaşayacaq, onu becərəcək adamlar qayıtmalıdır. İnsanların təhlükəsizliyini də təmin etmək lazımdır. Ağdamın, Füzulinin elə yerləri var ki, təpəciklərdən ibarətdir. Qoyunçuluq üçün çox əhəmiyyətlidir. Heyvanlar orda ilin 4 fəslində özünə yem tapa bilir".

✍ *Tahirə Qafarlı*

# Sumqayıt KSP-da 900 daimi iş yeri yaradılacaq



**Regionun ən böyük sənaye zonası olan Sumqayıt Kimya Sənaye Parkında indiyədək 24 sahibkarlıq subyektinə rezident statusu verilib.**

Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. O bildirib ki, növbəti mərhələdə 400 milyon manatdan çox investisiyanın qoyulması və 900-ə yaxın daimi iş yerinin yaradılması nəzərdə tutulur.



# Dağlıq Qarabağı müzakirə etdilər

**Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalın və ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan arasında telefon danışığı baş tutub.**

Tərəflər telefon danışığı zamanı Türkiyə və ABŞ münasibətlərini, Suriya, Liviya, Şərqi Aralıq dənizi, Kipr, Əfqanıstan və Dağlıq Qaradakı vəziyyəti müzakirə ediblər.

Həmçinin tərəflər COVID-19 pandemiyası və qlobal iqlim dəyişikliyi ilə mübarizə üzrə fikir mübadiləsi aparıblar. Söhbət əsnasında qarşıdakı dövr üçün iki ölkə arasında möhkəm, uzunmüddətli və konstruktiv münasibətlər modelini inkişaf etdirmək istəyi ifadə edilib.

## Müsahib

***A**li Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın şanlı ordusunun 44 günlük müzəffər yürüşündən sonra imzalanmış 10 Noyabr razılaşmasına əsasən noyabrın 25-də Kəlbəcər rayonu da işğaldan azad edildi. Ermənistan Söyüdlü (Zod) yatağının Azərbaycanın həmin rayonunun ərazisinə düşən hissəsini təhvil verməkdən imtina etməyə başladı. Bir müddət sonra Azərbaycan Ordusunun müdaxiləsi ilə məsələ həllini tapdı... Bugünədək hələ də Ermənistanın bəzi müxalif siyasi dairələri guya sovet dövründən qızıl yatağının Kəlbəcərdəki hissəsinin daha çoxunun ermənilərə məxsus olduğunu iddia edirlər. Atası Talıb Musayev 1920-1930-cu illərdən bəri Qərbi Azərbaycanda, o cümlədən Göyçə mahalında, Basarkeçərdə müxtəlif vəzifələrdə çalışmış, Ermənistan SSR Ali Sovetinin sədr müavini postunadək yüksəlmiş sabiq deputat Maksim Musayev "Həftə içi"nə müsahibəsində Zod qızıl yatağının aşkar edilməsi, istismarı və s. haqda maraqlı faktlar danışıb.*

# ZOD QIZIL YATAĞI məsələsində Mikoyan əli



**Maksim Musayev,**
sabiq deputat

***- Maksim müəllim, özünüz indi Ermənistan adlanan Qərbi Azərbaycanda doğulmusuz, gənclik illərindən o torpaqlarda müxtəlif işlərdə çalşmısız, atanız Talıb Musayev də 1920-1950-cu illərdə Qərbi Azərbaycanda, o cümlədən Göyçə mahalında, Basarkeçərdə müxtəlif vəzifələrdə çalışıb, Ermənistan SSR Ali Sovetinin sədr müavini postunadək yüksəlib. Yəqin ki, bir hissəsi hələ sovet dövründən bir hissəsi Ermənistan ərazisində qalmış Zod (Söyüdlü) qızıl yatağının kəşf edilməsi ilə bağlı məlumatlara malik olub?***

- Bəli, Zod qızıl yatağı barədə mən də hələ gənclik illərində atama suallar verirdim. O deyirdi ki, VII-VIII əsrlərdə oğuzlar həmin mədənlərdən qızıl çıxarırmışlar. Çar Rusiyası və sovet dövründə isə biz bilməsək də, rus və erməni geoloqların burada qızıl mədənlərinin olması barədə məlumatları olub. Atam bu haqda özünün 2008-ci ildə nəşr olunmuş "Ermənilər və faciələrimiz" adlı kitabında ətraflı yazıb. Əslində, sovet hökuməti Zod qızıl mədənini yarıya bölüb qərb hissəsinin ermənilərə bəxş edib və xalqımızın haqlı etirazlarına həmişəki kimi məhəl qoyan olmayıb... Halbuki, həmin torpaqlardakı nəinki qızıl yataqları, bütövlükdə Zəngəzur, Göyçə və s. tarixən Azərbaycanın olub...

### İlk məlumat 1950-ci ildə əldə edilib

***- Bəs bu proses necə baş verib? Kəlbəcər ərazisində qızıl yatağının olması haqda ilk dəfə rəsmi məlumat nə vaxt meydana çıxıb?***

- Atam deyirdi ki, bu haqda ilk məlumat ona 1950-ci il sentyabrın sonlarında bəlli olub. Bəhs etdiyim kitabında bu barədə belə yazıb: "O vaxt mən Basarkeçər partiya komitəsinin 1-ci katibi idim. Gecə saat 2 radələrində tanımadığım Sahakyan familiyalı bir erməni zəng vurub Tiflisdəki Zaqafqaziya axtarış briqadasından olduğunu bildirdi və ciddi-cəhdlə xahiş etdi ki, onları qəbul edim. Mən onları yalnız səhər qəbul edəcəyimi bildirib dəstəyi yerə qoydum. Dərhal təkrar zəng vurub gec də olsa, onları qəbul etməyimdə israr etdilər...".

### Mənba Dəvədamı təpəsi idi

Atam həmin gecə onlarla kabinetdə görüşüb. Ermənilər öz vəsiqələrini təqdim edərək deyiblər ki, hələ 5 il əvvəl Mirbəşir(indiki Tərtər-S.L.) rayonunun Tərtər çayında qum içərisində qızıl nişanələri tapmışıq. Bu 5 ildə Mirbəşirdən başlayaraq İstisuya qədər dərə, təpə, bulaq və çaylarda axtarışlar aparmışıq. Lakin istənilən nəticəni əldə edə bilmirdik. Bu il isə yenidən işə girişdik. Mirbəşirdə, Kəlbəcərdə, İstisuda, Çaykənddə axtarışlar apardıq, yenə əliboş qaldıq. Ümidimiz qalmadığından qısa yolla İstisudan Basarkeçərə keçib oradan da Tiflisə getməyi qərarlaşdırdıq. Yolda Söyüdlü yaylağı adalarına yurd yerində oturub çörək yeyən zaman bulaq suyunun axdığı hamar daş üzərindəki xırda-xırda çatlar içərisində qızıl qırıntıları götürdük. Həmin daşlardan 6 ədəd qızıl qırıntısı çıxardıq. Təxminən müəyyən etdik ki, qızılın mənbəyi həmin bulağın çıxdığı Dəvədamı adlanan təpədədir... Xülasə, atamdan xahiş ediblər ki, səhər onlara fəhlə, nəqliyyat və digər lazım olan əşyalar versin...

***- Yəqin ki, o dövrün idarəçilik tələblərinə görə atanız geoloqların erməni olmasına baxmayaraq, onların xahişlərini yerinə yetirməyə məcbur olub?***

- Əlbəttə. Axı o illərdə SSRİ-də artıq rəsmən milli ayrı-seçkiliyə imkan verilmirdi. Atam erməni olmalarına görə onları rədd etsəydi. Dərhal işdən azad edər, hətta barəsində cinayət işi qaldırardılar. Odur ki, geoloqların tələbləri səhər tezdən ödənilib. 4 gün qazıntı işləri aparılıb. Nəticədə aydın olub ki, təxminən 7-8 əsr əvvəl buradan qızıl çıxarmışlar. Qazıntı zamanı 2,5-3 metr dərinlikdə kirkirə, taxıl və yaxud qum üyütmək üçün əl dəyirmanı, kirəmit qızıl parıltıları ilə zəngin olan daş parçaları tapılıb. Atamın kitabda özünün yazdığını oxuyuram:

"4-cü gün mən özüm də oraya getdim. Axtarış gücləndirildi və bu barədə Ermənistan hökumətinə məlumat verildi. Hökumətin sədri Sahak Karapetyan, onun müavini, ixtisasca geoloq Suren Movsesyan və başqaları təcili olaraq Basarkeçərə gəldilər. Qazıntı olan yerlərə getdik. Onlar tam əmin oldular ki, burada böyük perspektivi olan qızıl mədənləri mövcuddur. Özlərinin görəcəkləri tədbirlərdən danışdılar. Mənə də müvafuq tapşırıqlar verdilər. Lakin istər qazıntı aparılan yer, istərsə də qızıl çıxmasına güman gələn yerlərin çox hissəsi Azərbaycan ərazisinə düşürdü. Mən bu barədə Karapetyana məlumat verdim. O isə belə cavab verdi:

"Birincisi, qızıl məsələsi yalnız Moskvanın səlahiyyətinə aiddir. İkincusi də Teymur Quliyevlə (Azərbaycan SSR Nazirlər Şurasının sədri (1946-1953; 1953-1954)-S.L.) özüm danışaram. Anastas Mikoyanla da məsləhətləşərəm və ondan xahiş edərəm ki, mədənin istismara verilməsində bizə yaxından köməklik etsin. Sən rayondan asılı işlərlə ciddi məşğul ol. Fəhlə qüvvəsi, nəqliyyat,ərzaq və digər təxirəsalınmaz məsələləri həll et..."

*Həmin yatağın daha çox hissəsi Kəlbəcər ərazisində olmalıydı...*

Axtarış işləri gündən-günə genişləndirildi. İki respublikanın tam sərhədində yeməkxana, anbar, yataqxana tikintisinə başlanıldı...

Qızıl yataqlarının çox hissəsinin Azərbaycanın Kəlbəcər rayonunun ərazisində yerləşdirilməsinə baxmayaraq onları istismara vermək üçün fəhlə qəsəbəsi, mədənin ətrafında əsaslı tikintilər də Zod kəndində inşa edilməyə başlandı...".

### Ermənilərin oyunu - Bakının susqunluğu

***- Bəs bütün bunlara Azərbaycan rəhbərliyi necə reaksiya verib?***

- Təəssüf ki, yəqin, dediyim səbəblərdən heç bir reaksiya olmayıb. Amma, sözsüz ki, Azərbaycan torpağında qazıntı işlərinin aparılması onun rəhbərlərinə bəlli olub. Atam danışırdı ki, 1951-ci ildə Kirovakan vilayət partiya komitəsinin konfransındakı çıxışımda bu məsələyə toxunub mədənin əsasən Azərbaycan torpağında olduğunu xatırlatdım. Ermənistan KPMK-nın o vaxtkı katibi Arutyunov dərhal yerindən qabarıb cavab verdi ki, Karapetyan bu barədə Teymur Quliyevə danışıb...

Bundan sonra ərazidən böyük sürətlə tikinti işləri aparılıb. Sonralar atama məlum olub ki, A.Mikoyan SSRİ Dövlət Plan Komitəsində və nazirliklərdə məsələni saxtakarlıqla Ermənistanın xeyrinə həll etdirib. Bu nadir və qiymətli sərvətə sahibləndikləri üçün ermənilər şənlik keçirib, rəhbərlik isə dövlət səviyyəsində banketlər verib...

Atam və Qərbi Azərbaycandakı digər ziyalılarımız ermənilərin bu uğuruna həddindən artıq qəzəblənib. Dediyim kimi, sovet dövrünün mənəvi-ideoloji qandalları onlara əl-qol açmağa, düşmənlərin planlarına müqavimət göstərməyə imkan vermirdi. Atam bu haqda kitabında ürək ağrısı ilə yazır:

"Biz, əlbəttə, o dövrdə ermənilərin bütün hiylələrini görürdük, bəzən bu və ya digər yolla etirazımızı da bildirirdik. Elə bir sistemdə yaşayırdıq ki, bizim haqq səsimizi eşidən belə yox idi. Bəzən də daxili əzabımızı, nifrətimizi biruzə verməklə özümüzü məhv etmiş olurduq. Belə işlər Ermənistanda yaşayan azərbaycanlılara, xüsusən də partiya-dövlət işçilərinə baha başa gəlirdi. Ermənilər bizi millətçilikdə təqsirləndirib ağır cəzalar belə, verməkdən çəkinmirdilər...".



### Qızıl zavodu niyə Araza yaxın tikilib?

***- Bəs ermənilər qızıl zavodunu niyə elə Zodda, mədənin yaxınlığında yox, bildiyimizə görə, yüzlərlə kilometr uzaqda ovaxtkı Vedi, indiki Ararat rayonunda tikib? Burada nə məqsəd güdülürdü?***

- Talıb müəllim deyirdi ki, Zod qızıl yataqlarının böyük hissəsinin ermənilərin əlinə keçməsində xaricdəki ermənilər də az rol oynamayıblar. Məhz onların təkidi və Ermənistan Elmlər Akademiyasının prezidenti, Basarkeçərdə doğulmuş Viktor Ambarsumyanın təşəbbüsü ilə sonralar qızıl emalı zavodu və fəhlə qəsəbəsi Zodda tikilməyib. Qəsəbə Basarkeçər kəndində salınıb, zavod isə Vedi rayonunun Dəvəli kəndində tikildi və həmin kənd Ararat qəsəbəsi, zavod isə Ararat qızılsaflaşdırma zavodu adlandırılıb. Ermənilər bu addımı çox uzaqgörənliklə atıblar.

Əvvəla, başdan-başa azərbaycanlılar yaşayan rayonda qiymətli metal müəssisəsi yaratmaq istəməyiblər. Çünki fəhlələr Basarkeçər və Kəlbəcər rayonlarının əhalisindən, yəni azərbaycanlılardan olacaqdı. İkincisi isə, belə bir zavodun Azərbaycan sərhədi zonasında salınması onları vahiməyə salırdı ki, Azərbaycan sabah öz qızılına sahib ola bilər. Bu da Ermənistanı yox şəklinə salar. Beləliklə, zavod mədəndən 280 km uzaqda, Araz çayının 8-10 km-liyində tikilib. Bu isə ermənilər üçün çox əlverişli idi. Çünki onlar Araz çayının sularından o məsafədə istifadə etmirlər. Odur ki, çayın çirklənməsi onları qətiyyən maraqlandırmırdı. Əksinə, Azərbaycana gəlib çıxan çayın zəhərli və zərərli kimyəvi maddələr daşıması xalqımızın sağlamlığına ziyan vurmaq baxımından onlara sərf edirdi...

***- Yəqin ki, Sovetlər İttifaqı dağıldıqdan sonra Ermənistanın digər torpaqları kimi Kəlbəcəri də işğal etməsi və nəticədə Zod qızıl yatağının bütövlükdə ermənilərin əlinə keçməsi Talıb müəllimi daha çox sarsıtdı?***

- Bəli, təəssüf ki, belə oldu. Torpaqlarımızın, Qarabağın da işğalı atamı çox ağrıdırdı. Buna rəğmən gec-tez torpaqlarımızın azad ediləcəyinə böyük ümidi vardı. Və ömrünün sonunadək bu ümidlə yaşadı - sanki torpaqlarımızın azad ediləcək bu günləri görürdü. Elə "Ermənilər və faciələrimiz" kitabının Zod yatağından bəhs edən hissəsini də bu ümid və Azərbaycan gənclərinə tövsiyə ilə bitirmişdi:

"O vaxtlar Azərbaycanın müstəqil olması ürəyimizdən keçsə də, bizə xəyal kimi görünürdü. Yəqin ki, müstəqil olsaydı, respublika öz halal sərvətini- Kəlbəcər qızılını ermənilərə güzəştə getməzdi. Mən bu fikirləri məhz on görə yazıram ki, yeni nəsil gənclərimiz çətinliklə əldə etdiyimiz müstəqilliyimizi göz bəbəyi kimi qorusunlar, onun yolunda canlarını belə, əsirgəməsinlər. Cavanlardan xahişim budur ki, Vətəni sevsinlər.

Onu əldə etmək nə qədər çətindirsə, əldə saxlamaq da bir o qədər çətindir. Torpaqlarımızın bir qarışını da heç kimə güzəştə getmək olmaz. Tariximizdə müharibələr, qələbələr, məğlubiyyətlər çox olub... Əminəm ki, bu gün ermənilərin minbir fırıldaqla müvəqqəti işğal etdikləri ərazilərimiz qaytarılacaq və ildə 6-7 ton qızıl verən qızıl yataqlarımız da öz həqiqi sahibinə, özümüzə çatdırılacaqdır...

Bir daha yadda saxlayın ki, qızıl çıxan torpaqlar Azərbaycanın olub. Azərbaycanın da olmalıdır. Bunu gələcək nəsillər yaxşı bilməli və torpaqlarımızın azad olunması uğrunda əllərindən gələni əsirgəməməlidirlər. Yaxşı olardı ki, Kəlbəcər tərəfdən qızıl çıxarılmaşı işinə dərhal başlansın. Kəlbəcər işğaldan azad edilən kimi bu işə başlansa, xeyli iş yeri açılar və Ermənistanla sərhəddimiz daha möhkəm olar...".

✍ ***Sultan Laçın***

# PREZİDENTƏ YAZIRLAR



**Svetlana Əhmədova, Bakı:**

- Hörmətli cənab Prezident!

Azərbaycan Dövlətinin inkişafı və xalqımızın rifahı naminə gördüyünüz bütün işlərinizə görə Sizə təşəkkürlərimi bildirirəm. Azərbaycan xalqına unudulmaz fəxarət anları yaşatdığınız üçün Sizə hədsiz minnətdarıq. Xalqımız Sizi çox sevir və Sizinlə qürur duyur. Nə yaxşı ki, varsınız. Sizə və ailənizə möhkəm cansağlığı, uzun ömür, gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

---

**Məhəmməd Yusifov, Qax:**

- Hörmətli Prezidentimiz, bizim qürurumuz Zati-aliləri cənab İlham Əliyev!

Rəhbərliyinizlə 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu haqq savaşında qalib gəldiyimiz üçün hamı kimi mən də çox sevincliyəm. Biz hər zaman Sizinlə və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva ilə fəxr etmişik, bundan sonra da fəxr edəcəyik, İnşallah!

Cənab Prezident, Zaqatala regional qaz idarəsinin xidmət sahəsində 11 ilə yaxındır ki, çalışıram. Vətən müharibəsində mən də bir əsgər olaraq öz borcumu yerinə yetirərək artıq bir aydır ki, evimə, işimə geri qayıtmışam. Çox sağ olun ki, Sizin tapşırığınızla hərbi xidmətdə olduğum müddətdə mənim ailəmə diqqət və qayğı göstərilmiş, aylıq maaşımla təmin olunmuşlar.

Çox sağ olun ki, bizi qalib etdiniz, cənab Prezident. Sizin qarşınızda baş əyirəm. Biz Sizə ömürlük Prezidentimiz olmağınızı arzu edirik. Bu istək Sizi sevən on milyon ölkə vətəndaşlarının arzusudur.

**Allah Sizi, ailənizi, doğmalarınızı hər zaman qorusun! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!**

---

**Elmar Məlikov, Quba:**

- Çox hörmətli əziz Prezidentim,

Azərbaycan Prezidenti olaraq Vətəni bu qədər çox sevməyiniz bizi qürurlandırır. Siz bütün Azərbaycan xalqına elə bir xoşbəxtlik və sevinc hissi yaşatdınız ki, bunu söz ilə ifadə etmək, paylaşmaq belə çox qürurvericidir. Bu tarixi zəfərə görə Sizə səmimi qəlbdən təşəkkür edirəm.

Mən ömrümdə heç vaxt belə qürurlu və xoşbəxt olmamışdım. Bu elə bir hissdir ki, onu yaşayanlar bilər. Sizə "çox sağ olun" deyirəm. Allah Sizi bizlərə çox görməsin! Ürəyim Sizə qarşı xoş sözlərlə doludur.

Ölkəmizin ərazi bütövlüyünü təmin etməklə, doğma torpaqlarımızı düşmən tapdağından azad etməklə Siz öz adınızı tariximizin şanlı səhifəsinə qızıl hərflərlə həkk etdirdiniz. Bu möhtəşəm zəfərin müəllifi Sizsiniz.

Tutduğunuz bu çətin və şərəfli yolda Sizə böyük uğurlar arzulayıram. Allah yar və yardımçınız olsun!

---

**Sevda Məmmədova, Göygöl:**

- Müzəffər Ali Baş Komandan!

Siz qüdrətli Azərbaycan Ordusunun məğrur Sərkərdəsisiniz! Qarabağ fatehi olaraq adınızı Azərbaycan tarixinin şanlı səhifəsinə qızıl hərflərlə yazdırdınız.

Sizinlə fəxr edirəm və mənfur düşmən üzərində qazandığınız böyük qalibiyyət münasibətilə Sizi sevinc hissi ilə təbrik edirəm. Azərbaycanın güclü dövlət olduğunu bütün dünyaya nümayiş etdirdiyiniz üçün Sizə ürəkdən minnətdaram. Nə yaxşı ki, Sizin kimi Prezidentimiz var.

Ümummilli Liderimizin "Azərbaycan" adlı şanlı kitabının səhifələrini zəfərli və qürurlu anlarla doldurduğunuza görə Sizə bir vətəndaş olaraq sonsuz təşəkkürlərimi bildirirəm.

Ümidvaram ki, bundan sonra uğurlarınız və zəfərləriniz davamlı olacaq, İnşallah!

---

**Bəhruz Həsənov, Bakı:**

- Müzəffər Ali Baş Komandan!

Bu məktubu yazmaqda məqsədim Sizə ürək sözlərimi bildirməkdir.

Mən bir Azərbaycan vətəndaşı və hərbi qulluqçu olaraq Sizin apardığınız uğurlu siyasəti daim dəstəkləmişəm. Siz 44 günlük haqq savaşında dəmir yumruğunuzla Azərbaycanımızın gücünü bütün dünyaya göstərdiniz. Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq onun vəsiyyətini yerinə yetirdiniz. Bu illər ərzində xalqın etimadını doğruldaraq inamla irəliləyirsiniz.

Cənab Prezidentim, xalqımız Sizə çox güvənir, xalqla irəli! Xalqımız da qürurla deyir: "İlhamla irəli"! Ulu Öndərimizi yaxından görmək mənə heç zaman qismət olmadı. Allah o günü nəsib etsin ki, Sizinlə bir dəfə görüşüm.

Cənab Prezident, Siz əvəzolunmaz bir dövlət başçısı və sərkərdəsiniz. Bu xalq, dövlət, bayraq Sizə əmanətdir. Biz gənclər də hər zaman Sizin köməkçilərinizik. Sizin getdiyiniz yolu həmişə dəstəkləyirik və Sizinlə birlikdə irəliləyirik.

**Sizə gələcək işlərinizdə böyük uğurlar arzu edirəm. Allah Sizi qorusun!**

---

**Banuçiçək Bədirli, Bakı:**

- Əziz və sevimli Prezidentim!

Mən "Evrika" liseyinin 4-cü sinif şagirdiyəm. Dərslərimi çox yaxşı oxuyuram, "əla" qiymətlər alıram.

Doğma torpaqlarımızın azad olunmasına görə mən çox sevinirəm. Hətta Zəfər Paradında da atamla birlikdə iştirak etmişəm. Mənim ən böyük arzum Sizi yaxından görmək və tanış olmaqdır.

Mən həmişə dərslərimi yaxşı oxuyacaq, Vətənimə layiqli övlad olacağam.

**Sizə cansağlığı, uzun ömür arzulayıram. Sizi çox sevirəm.**

---

**Hüseyn İsmayılov, Şirvan:**

- Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Ulu Öndərimizin layiqli davamçısı kimi Sizin müdrik siyasətiniz və rəhbərliyiniz nəticəsində bu gün Azərbaycanımız siyasi-hüquqi və iqtisadi baxımdan qüdrətli bir dövlətə çevrilmişdir.

Cənab Prezident, respublikamızın qazandığı uğurlarda parlaq zəkası və dərin düşüncəsi, elmi dünyagörüşü və zəngin təfəkkürü ilə dünya miqyasında Azərbaycanın milli-mənəvi dəyərlərinin təmsilçisi, ölkəmizin ictimai-siyasi həyatında, dövlətimizin idarə olunmasında xüsusi fəallıq nümayiş etdirən bir ziyalı kimi Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın da zəhməti böyükdür. Biz əminik ki, Azərbaycan dövləti bundan sonra da Sizin davamlı inkişafa yönələn strategiyanız sayəsində dünyanın ən qüdrətli, ən güclü ölkələrindən birinə çevriləcəkdir.

Bu yolda Sizə və ailə üzvlərinizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

# Ömürboyu təhsil

## Layihə

***"Dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır". Hafta.az-ın məlumatına görə, bu, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapıb. Sənəddə qeyd olunub ki, strateji dövrdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan "ömürboyu təhsil"ə xüsusi önəm verilməlidir.***



### Müasir dövrdə "ömürboyu təhsil"in zəruriliyi, artıq heç kimdə şübhə doğurmur

Erkən və məktəbəqədər təhsilin əhatə dairəsi genişlənməli və mərhələlərlə müvafiq yaşda olan bütün uşaqları əhatə etməlidir. Cəmiyyətin inkişafının təminatçısı olan ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmə davam etdirilməli, məzmun islahatları dərinləşməli, inteqrativ tədris təcrübəsi inkişaf etdirilməlidir. Bu əsasda ölkənin beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olunmalıdır.

Sənəddə nəzərdə tutulub ki, təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir. İnsanların yüksək keyfiyyətli təhsil almaq imkanları genişləndirilməli, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalıdır, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalıdır. Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı təmin olunmalıdır.

Bəs görəsən, "ömürboyu təhsil"i zərurətə çevirən faktorlar hansılardır? Qeyd edək ki, müasir dövrdə "ömürboyu təhsil"in zəruriliyi artıq heç kimdə şübhə doğurmur.

Ekspertlərin fikrincə, sürətlə dəyişən texnologiyalar və iqtisadi dəyişikliklər şəraitində ölkənin gələcək inkişafını təmin edəcək insan kapitalının yetişdirilməsi mühüm vəzifədir. Məhz təhsil sistemi insan kapitalının formalaşdırılması və onun inkişafını təmin edir. Öz növbəsində, insan kapitalı ölkənin rəqabət qabiliyyətliliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bununla əlaqədar olaraq da müasir cəmiyyətdə insan kapitalının rolu durmadan artır. Tam əminliklə qeyd etmək olar ki, yaxın illərdə dünya arenasında ölkənin rəqabət qabiliyyətliliyi, ilk növbədə, onun təhsil sisteminin rəqabətqabiliyyətliliyi ilə müəyyən olunacaq. Təhsil üçün potensial çağırışları müəyyən edən qlobal rəqabətin əsas dəyişiklikləri isə insan kapitalının kəmiyyət və keyfiyyəti, müxtəlif ictimai-iqtisadi çağırışlar qarşısında sosial davamlılığın dərəcəsi kimi faktorlarla xarakterizə olunur. Bu cür yanaşma isə "ömürboyu təhsil"in cəmiyyət həyatı üçün əhəmiyyətini bariz şəkildə ortaya qoyur. "Ömürboyu təhsil"ə bu cür yanaşma ölkə Prezidenti tərəfindən 2013-cü il oktyabrın 23-də imzalanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da öz əksini tapıb. Həmin sənəddə qeyd olunub ki, müasir dövrdə təhsilin iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artıb. Hazırda təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqların aşılanması ilə bərabər, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlığı kimi vəzifələri yerinə yetirməlidir. İnsanın ömürboyu təhsil almaq tələbatının ödənilməsi isə təhsilin iqtisadi həyatda rolunu yüksəldən amillərdən ən mühümüdür. Eyni zamanda, sürətli texnoloji tərəqqi bilik və bacarıqların müntəzəm yenilənməsini tələb edir. Bu isə yeni və daha münasib ixtisasa yiyələnməyə və səriştənin inkişafına tələbatı artırır.

Sözsüz ki, müasir dünyada rəqabətə davamlı olmaq o qədər də asan məsələ deyil. Bunun üçün yüksək ixtisaslı kadrların hazırlığına hələ uşaq yaşlarından başlanması, onların karyera yolunun və peşəkar bacarıqlarının müəyyən olunması vacibdir ki, sürətlə dəyişən şərtlərə uyğunlaşmaq mümkün olsun. Məhz "ömürboyu təhsil"in təşkilinə artan tələbat da bu zərurətlə izah olunur. Dünya təhsil prosesi sürətlə dəyişməyə və biliklərin ötürülməsini sürətləndirməyə və onlara girişi sadələşdirməyə məhkumdur, buna görə də hazırda distant təhsil, onlayn-təhsil geniş yayılıb.

Təhsil sistemlərində 3D-texnologiyaları tətbiq olunur, virtual reallıq kök salır. Bu səbəbdən də hazırda "ömürboyu təhsil" trendi daha çox aktuallıq kəsb etməyə başlayır. Əksər hallarda artıq insanlar təkcə bir sahədə deyil, müxtəlif sahələrdə öz səriştələrini inkişaf etdirir. Bu cür reallıq bizdən daim ömürboyu öyrənməni və yenidən ixtisaslaşmanı tələb edir.

■ **Mövzu ilə bağlı fikirlərini hafta.az-la bölüşən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərov deyib ki, Peyğəmbərimiz hələ əsrlər öncə beşikdən qəbrə kimi oxumağın vacib olduğunu bildirib:** "Ömürboyu təhsil" əsrlər əvvəl islam mədəniyyətində yer alıb. Təqribən 40-50 il bundan öncə isə Avropa ölkələri bu məsələni dərk etdilər və ömürlük təhsil formasını tapdılar. Ömür boyu təhsili reallaşdırmaq üçün müxtəlif kurslar, fakültələr, dərnəklər, bölmələr təsis etdilər. Hətta, 40 yaşına qədər təhsillə məşğul olmayan bir qadın yaşlılar üçün həyata keçirilən təhsil proqramına qoşularaq dövrünün tanınmış bir yazıçısına çevrildi. Təbii ki, əgər ömrünün mənalı, zəngin keçməsini istəyirsənsə, öyrənməlisən. Kimsə özünütəhsillə məşğul olur, özü-özünü öyrədir, kimininsə ayrı bir metodologiyaya ehtiyacı var. Onlar da bu məqsədlə təşkil olunmuş universitetlərdə, fakültə və kurslarda təhsil ala bilər. Bu, çox əhəmiyyətli məsələdir. Beşikdən qəbrə qədər təhsil yaşayan ideyadır».

■ **Məsələyə münasibət bildirən təhsil eksperti Kamran Əsədov deyib ki, ölkədə təhsilin inkişafı dövlətin əsas prioritetlərindəndir: "Prezident İlham Əliyev Azərbaycan təhsilində aparılan sistemli islahatlara münasibət bildirərkən dəfələrlə qeyd edib ki, ölkədə təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib.** Belə ki, təhsilin bütün pillələrində - uşaq bağçalarında, məktəbdənkənar müəssisələrdə, orta məktəblərdə, kolleclərdə, peşə təhsilində, ali təhsil sahəsində, ali təhsildən sonrakı təhsil, əlavə təhsil sahəsində yeni layihələrin reallaşdırılması istiqamətində mühüm addımlar atılıb. Lakin təhsil sisteminin inkişafı ilə bağlı atılan bir sıra addımlara baxmayaraq, müəyyən problemlərin həlli hələ də gecikir. Düşünürəm ki, insanların yüksək keyfiyyətli təhsil almaq imkanları genişləndirilməli, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalıdır, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalıdır".

#### Yeri gəlmişkən...

**Heç təsadüfi deyildir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Davos İqtisadi Forumu çərçivəsində elan etdiyi və 2019-cu ildə dünyada təhsil sahəsinin formalaşdırılmasının əsas trendlərinə həsr olunmuş hesabatında (Trends Shaping Education 2019) da "ömürboyu təhsil" gələcək illərin əsas tendensiyalarından hesab olunub.**

Yeri gəlmişkən, son 45 ildə OECD ölkələrində orta insan ömrü 70-dən 80 yaşa qədər artıb. Mütəxəssislərin fikrincə, 65 və daha artıq yaşlıların ömrünün əhəmiyyətli dərəcədə artacağı gözlənilir. Yaşlı işçilər əmək bazarının artan qeyri-stabilliyi təhlükəsi ilə rastlaşacaq, yüksək texnologiyalara çıxış əldə etmək üçün keyfiyyətli yenidənhazırlanma və ixtisasartırma imkanlarından yararlanmalı olacaqlar.

Bununla da "ömürboyu təhsil"in təmin olunması üzrə cari təkliflər ölkələrin əksəriyyətində güclənəcək. Bir çox ölkələrdə yaşlı insanlar mürəkkəb rəqəmsal informasiyanı idarə etmək üçün kifayət qədər bacarıqlara malik deyillər. Hökumətlər və işəgötürənlər buna görə də "ömürboyu təhsil"in təmin olunması üçün tələb edilən işlərlə ciddi məşğul olmalıdırlar. OECD qeyd edir ki, insan ömrünün uzanmasına dair gözləntilər artır, əvvəlcədən proqnozlaşdırıla bilməyən əmək bazarı isə o deməkdir ki, insanların çoxu tez-tez yenidən hazırlanmaya ehtiyac duyurlar. Daha çox diqqət insanların ömürboyu təliminə ayrılmalıdır ki, onlar iş yerini dəyişə və daha gec yaşlarda təqaüdə çıxa bilsinlər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması



**Kamran Əsədov,**
təhsil eksperti

*"Təhsil sisteminin inkişafı ilə bağlı atılan bir sıra addımlara baxmayaraq, müəyyən problemlərin həlli hələ də gecikir"*

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## BİR CÜMLƏ-BİR XƏBƏR

■ Daxili işlər naziri Vilayət Eyvazovun imzaladığı əmirlə polis polkovniki Fəqan Azadəliyev Lənkəran rayon Polis Şöbəsinin rəisi vəzifəsindən azad edilərək Sumqayıt şəhər Polis İdarəsinə rəis təyin edilib.

■ Son sutka ərzində koronavirusa yoluxan ibtidai sinif (I-IV) sayı 2, işçi heyətinin sayı isə 7 olub, məktəbəqədər hazırlıq qruplarında virusa yoluxmuş uşaq olmayıb.

■ NATO müdafiə nazirlərinin görüşü keçiriləcək, virtual formatda keçirilən görüş fevralın 17-18-də baş tutacaq, görüşə NATO Baş katibi Yens Stoltenberq sədrlik edəcək.

■ Uqandada ölümlə nəticələnən yol qəzası baş verib, beş avtomobilin toqquşması nəticəsində ən azı 32 nəfər ölüb, 5 nəfər isə xəsarət alıb.

■ Bərdənin Cəyirli kəndi ərazisində Bərdə rayon sakini S.Ağalarov idarə etdiyi "VAZ-2106" markalı avtomobillə yolu keçən Ağdam rayon sakini Z.Əliyevi vurub, ağır xəsarətlə xəstəxanaya yerləşdirilən piyada orada ölüb.

■ Türkiyənin Sakarya vilayətində İordaniya əsilli terrorçu İŞİD terror təşkilatının "təhsil nazirinin müavini" tutulub, bu barədə Türkiyənin Daxili İşlər Nazirliyi məlumat yayıb.

■ Bu həftə ölkəyə daha 500 000 doz peyvənd gətiriləcək, bu barədə Nazirlər Kabinetindən bildirilib, daha sonra alınmış peyvəndlər mərhələlərlə qəbul olunacaq.

■ Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu norveçli həmkarı İne Eriksen Soreydeni qəbul edib, görüş zamanı Suriya, Liviya, Şərqi Aralıq dənizi məsələləri ilə yanaşı, Dağlıq Qarabağ məsələsi də müzakirə olunub.

■ Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli ilə Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin ("Rosselxoznadzor") rəhbəri Sergey Dankvert Azərbaycandan Rusiya Federasiyasına ixrac olunan alma və pomidor məhsullarına tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılması məsələsini müzakirə ediblər.

■ ABŞ Prezidenti Co Bayden federal hökumətin mühacirət siyasətində islahat barədə bir neçə fərman imzalayıb, bu islahatlar ailələrin qorunması, qanuni miqrasiyanın nizama salınması və sərhədləri qeyri-qanuni keçmələrin öyrənilməsinə istiqamətlənib.

■ Gürcüstanın keçən il turizmdən gəlirləri 3 milyard dollar azalıb, bu azalmaya koronavirus pandemiyası səbəb olub, bu barədə ölkənin Milli Bankının prezidenti Koba Qvenetadze deyib.

■ Beynəlxalq Olimpiya Komitəsi (IOC), Beynəlxalq Paralimpiya Komitəsi və "Tokio-2020"nin Təşkilat Komitəsi Yaponiya paytaxtında keçiriləcək olimpiadanın qaydalarının birinci versiyasını təqdim edib, qaydaların növbəti versiyasının apreldə dərc ediləcəyi vurğulanıb.

■ Qırğız Respublikasının prezidenti Sadır Japarov Ulukbek Maripovun baş nazir təyin edilməsi haqqında sərəncam imzalayıb, bu barədə Qırğız Respublikası prezidentinin rəsmi saytı məlumat yayıb.

■ 2021-ci ilin yanvar ayında Azərbaycanın mobil qurğular bazarında "Samsung" liderliyini qoruyub - 45,48 faiz təşkil edib, ikinci yerdə qərarlaşan "Xiaomi"nin bazarda payı 0,53 faiz artaraq 31,45 faiz olub, "Apple" smartfonlarının payı isə dekabrla müqayəsədə 0,71 faiz artıb və 14,72 faizə bərabər olub.

■ 2021-ci ilin yanvar ayında Almaniyada yeni avtomobillərin satışları 30% azalaraq təxminən 170 min vahidə enib, bu barədə "Reuters"ə yerli bazardakı etibarlı mənbə deyib.

## Aktual

# XİN-dən Avropa Parlamentinə cavab



**Avropa Parlamentinin (AP) üzvləri, Avropa İttifaqı (Aİ) və Cənubi Qafqaz ölkələri üzrə Parlament Tərəfdaşlıq Komitələrində nümayəndə heyətinin sədri, Marina Kalyurand, AP-nin Ermənistan üzrə daimi məruzəçisi Andrey Kovaçev və AP-nin Azərbaycan üzrə daimi məruzəçisi Yelena Zovko tərəfindən "Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların davam etdirilməsinə ehtiyacın olması" barədə birgə bəyanatın verilməsi AP üzvlərinin, ümumiyyətlə, bölgədə sülh və əminamanlığın beynəlxalq hüququn təməl prinsipləri əsasında təmin olunması mövqeyindən çıxış etmələrinə rəğmən bölgədə mövcud olan cari vəziyyətdən hələ də tam məlumatlı olmadıqlarını göstərir.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Avropa Parlamentinin Cənubi Qafqaz ölkələri üzrə Parlament Tərəfdaşlıq Komitələrində nümayəndə heyətinin birgə bəyanatına dair şərhində deyib.

İlk növbədə, AP üzvlərinin diqqətinə çatdırmaq istərdik ki, AP-nin öz qətnamələrində illərdir ki, beynəlxalq hüquq prinsipləri, həmçinin BMT TŞ qətnamələri əsasında həllinə çağırdığı Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulub, Azərbaycan ərazi bütövlüyünü təmin edib və BMT TŞ-nin 1993-cü il tarixli müvafiq qətnamələrinin həyata keçirilməsini təkbaşına təmin edib. Başqa sözlə desək, AP üzvlərinin istinad etdiyi və dövlətlərarası münasibətlərin təməlini təşkil edən Helsinki Yekun Aktının sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsipləri rəhbər tutulub.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatla bölgədə yeni reallıq yaranıb. AP üzvlərinin sözügedən üçtərəfli bəyanatın bölgədə sabitliyin təmin olunmasına gətirdiyini qeyd etməsi təqdirəlayiqdir. Çünki hazırkı mərhələdə bölgədə sülh və təhlükəsizliyin təmin olunması, habelə tərəflər arasında etimadın qurulması üçün, məhz 10 noyabr tarixli üçtərəfli razılaşmanın icrası və bu istiqamətdə müvafiq addımların atılması vacibdir.

Azərbaycan tərəfi, öz növbəsində sözügedən razılaşmanın icrası üçün, o cümlədən humanitar məsələlərin həlli sahəsində bütün lazımi addımları atır, lakin Ermənistan tərəfinin imza atdığı bu bəyanata sadiqliyi sual doğurur. Yaxşı olardı ki, AP üzvləri Ermənistan tərəfinə hərbi əməliyyatların dayandırılması ilə bağlı birgə bəyanata imza atdıqdan, az qala, 20 gün sonra nə səbəbdən Azərbaycan ərazilərinə diversant qrupunu göndərdiyi ilə bağlı sual ünvanlayardı. Bəlkə o zaman AP üzvləri haqqında bəhs olunan Ermənistan hərbçilərinin heç də hərbi əsir deyil, atəşkəs elan olunduqdan sonra məqsədyönlü şəkildə Azərbaycan ərazilərinə göndərilmiş terrorçu diversant qrupunun üzvləri olduğunu anlayardı. Ümumiyyətlə, Ermənistanın atəşkəs elan olunduqdan sonra terror aktları törətmək məqsədilə əraziyə hərbi qulluqçılarını göndərməsi, bu ölkənin iştirakçısı olduğu Şərq Tərəfdaşlığının təməl prinsiplərinə və ümumilikdə Avropa dəyərlərinə hörmət etmədiyini açıq şəkildə nümayiş etdirir.

Mədəni irs məsələsinə gəldikdə isə, AP üzvlərinə yaxşı bəlli olmalıdır ki, Azərbaycanın onilliklərdir ki, işğal altında qalan ərazilərində Ermənistan tərəfinin apardığı qeyri-qanuni fəaliyyət nəticəsində bütün tarixi, mədəni və dini irs demək olar ki, məhv edilib, sözügedən abidələrin dağıdılması, talan edilməsi, mənşəyinin dəyişdirilməsi ilə bağlı hərbi cinayətlərə bərabər fəaliyyət həyata keçirilib. Bu məsələ Azərbaycan tərəfindən davamlı şəkildə beynəlxalq platformalarda, o cümlədən Avropa İttifaqı institutları ilə təmaslarımız zamanı qaldırılsa da AP üzvlərinin bu günədək bu məsələ ilə bağlı bir dənə də olsun bəyanat verməməsi təəssüf doğurur. AP üzvlərinin diqqətinə çatdırmaq istərdik ki, Qarabağdakı bütün abidələr Azərbaycan xalqının tarixi, mədəni və dini irsinə məxsusdur. Azərbaycan multikultural ölkədir və ərazisindəki bütün abidələr dövlət səviyyəsində qorunur. Ölkəmizin zəngin irsinin mühafizəsi bundan sonra da yüksək səviyyədə təmin ediləcək, o cümlədən işğaldan azad olunmuş ərazilərdəki abidələrin bərpası, təmiri və yenidən qurulması işləri həyata keçiriləcəkdir.

## İqtisadiyyat

# Mərkəzi Bank vəsaitlərini necə formalaşdırır?

**Məlum olduğu kimi, Azərbaycan Mərkəzi Bankı özünə dəyəri, təxminən, 435 milyon manat həcmində layihələndirilən bina tikdirməyə hazırlaşır. Bu məsələ cəmiyyətdə birmənalı qarşılanmayıb və ciddi müzakirələrə yol açıb. Mərkəzi Bankın sədri Elman Rüstəmov isə rəhbərlik etdiyi qurum üçün tikiləcək inzibati binanın qiymətiylə bağlı gedən müzakirələrə münasibət bildirərkən deyib ki, bina ətrafında gedən müzakirələrdən xəbəri var və yeni bina öz vəsaitləri hesabına tikiləcək.**



Mərkəzi Bankın hazırki binası

*Mərkəzi Bankın sədri Elman Rüstəmov: "Biz yeni inzibati binamızı öz vəsaitimiz hesabına tikəcəyik. Mənim bu müzakirələrdən xəbərim var. Onu qeyd edim ki, son 3 ildə dövlət büdcəsinə 7,8 milyard manat vəsait köçürmüşük. Bu il isə 250 milyon manat köçürməyi düşünürük".*

Bəs, görəsən, Mərkəzi Bank sədri "öz vəsaitimiz" dedikdə hansı vəsaitləri nəzərdə tutur? Bu ifadəni işlətmək üçün iqtisadi və hüquqi cəhətdən əsas varmı?

■ **Məsələni hafta.az-a şərh edən bank məsələləri üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov deyib ki, Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinə əsasən, Mərkəzi Bank müstəsna olaraq dövlətə məxsusdur:** "Mərkəzi Bankın sədri Elman Rüstəmov deyib ki, yeni binanı öz hesablarına tikəcəklər. Yəni, dövlət büdcəsi hesabına yox. Onu da vurğulayıb ki, əksinə, Mərkəzi Bank özü əldə etdiyi gəlir hesabına hər il dövlət büdcəsinə milyonlara vəsait köçürür. Sadə dillə desək, dövlətin bir neçə cibi var. Ən böyüyü dövlət büdcəsidir. Onun gəliri əsasən vergi və rüsumlar hesabına formalaşır. Digər əsas cibi xalqın gələcək nəsilləri üçün ayrılan Dövlət Neft Fondudur. Gəliri, xalqa mənsub olan neftin satılması hesabına formalaşır. Başqa bir cib isə Mərkəzi Bankdır. Xalqın qəbul etdiyi Konstitusiyanın 19-cu maddəsində göstərilib ki, o, dövlətin müstəsna mülkiyyətindədir və pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız ona mənsubdur. Bu cib ona görə ayrılıb ki, hökumət xərclərini yeni pulların buraxılması hesabına həyata keçirərək törətməsin. Təbii ki, neft kimi, pul nişanları da xalqa məxsusdur. Bu baxımdan Elman Rüstəmovun açıqlaması nə iqtisadi, nə də hüquqi cəhətdən doğru deyil".

Ekspert vurğulayıb ki, Neft Fondu kimi Mərkəzi Bank da pul qazanmaq üçün xüsusi hansısa addım atmır: "Belə deyək, bu qurumlar gəlir əldə etmək üçün tər tökmür, gəlir özü sel kimi gəlir. Necə? Mərkəzi Bankın auditoru olan şirkətin rəy verdiyi maliyyə hesabatlarından görünür ki, Mərkəzi Bankın əsas gəliri banklarımıza verdiyi kreditlər üzrə faiz gəliridir. Yəni, xalqın Konstitusiya ilə ona verdiyi səlahiyyət əsasında Mərkəzi Bank pul çap edir, həmin pulu banklara kredit kimi verir və faiz qazanır. Paradoksal hal odur ki, bu model sələmçiliyə söykəndiyi üçün inflyasiya qaçılmazdır, bununla belə hesab olunur ki, mərkəzi banklar inflyasiya ilə mübarizə aparır. İndi təsəvvür edin ki, siz konfet kağızı buraxırsız, hamı da gəlir onu sizdən borc götürür və sizə faiz ödəyir. Yəni oturduğunuz yerdə rahat pul qazanırsız. Çətindir? Əlbəttə, yox. Bundan rahat qazanc ola bilməz. Hələ üstəlik Mərkəzi Bank çap etdiyi pulları xarici valyutaya da dəyişir və bunun müqabilində valyuta ehtiyatları formalaşır. Yenə təsəvvür edin ki, sizin buraxdığınız konfet kağızları müqabilində sizə xarici valyuta verirlər. Kim istəməz belə rahat valyuta qazancını? Hamı istəyər. Həmin bu qazanc hesabına Mərkəzi Bank hər il dövlət büdcəsinə vəsait köçürür, indi isə deyir ki, bir hissəsini köçürməyəcəyəm, özümə yeni bina tikəcəyəm, pul mənimdir, özüm bilərəm. Əslində isə pul onun yox, dövlətindir".

Ə.Həsənov vurğulayıb ki, "öz vəsaiti hesabına" anlayışı əsasən, özəl şirkətlərin əldə etdiyi gəlirlər üçün uyğun olan bir ifadədir: "Yəni, özəl şirkətlərin prezidentləri belə məsələlərlə fəxr edə bilərlər ki, yaxşı işləyiblər, nəsə istehsal ediblər, satıblar, dünya bazarına çıxıblar, pul qazanıblar. Öz vəsaiti hesabına tikmək nə deməkdir? Mərkəzi Bankın vəsaiti nə deməkdir? Mərkəzi Bank ayrıca bir kommersiya qurumu deyil ki, hardasa kənarda pul qazansın. Mərkəzi Bankın əldə etdiyi vəsait dövlətin vəsaitidir, çünki Azərbaycan Respublikasının Mərkəzi Bankıdır. Ona görə fərqi nədir ki, Mərkəzi Bank vəsaiti büdcədənmi alsın, yoxsa büdcəyə ötürülməli olduğu vəsaitə özünə bina tiksin. Bina olmasaydı, Mərkəzi Bank həmin vəsaiti büdcəyə ötürəcəkdi. Bir daha deyirəm ki, dövlətin vəsaiti tək büdcədə deyil, Mərkəzi Bankın ehtiyatlarında, Dövlət Neft Fondunda və s. saxlanılır".

Onun söslərinə görə, bir neçə gün öncə ölkə Prezidentinin bəzi məmurlarla yanaşı, Mərkəzi Bank sədrini kəskin şəkildə tənqid etməsi də təsadüfü deyil: "Ölkə başçısının ilk olaraq Mərkəzi Bank haqqında fikir bildirməsi o demək idi ki, onun əsas narazılığı bu qurumla əlaqəlidir. Yəni, Mərkəzi Bank özünə bina tikmək istəyir, halbuki 2 binası var. Qurumun özünə Şuşada filial açma istəyi də təəccüblüdür. Ölkəmizdə Mərkəzi Bankın ərazi idarələri var. Lakin həmin ərazi idarələri banklara xidmət göstərir.

Azad edilən ərazilərdə 1-2 bank olsa belə, orada nə xidmət göstərəcəklər ki? Ola bilsin ki, gələcəkdə həqiqətən də azad edilən ərazilərin hansındasa Mərkəzi Bankın ərazi idarəsi olsun, amma bunun Şuşada olması vacib deyil. Prezidentimiz də deyir ki, Şuşa mədəniyyətimizin paytaxtıdır, məmurların yox. Təbii ki, məmurların bu kimi qeyri-peşəkar təşəbbüsləri ölkə Prezidentini də bezdirib".

> “ Elman Rüstəmovun açıqlaması nə iqtisadi, nə də hüquqi cəhətdən doğru deyil

> “ Bu məsələdə Mərkəzi Bank rəhbəri fikrini tam ifadə edə bilməyib



Mərkəzi Bankın yeni binasının layihəsi

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisad elmləri doktoru, professor Əli Əlirzayev isə hesab edir ki, bu məsələdə Mərkəzi Bank rəhbəri fikrini tam ifadə edə bilməyib:** "Azərbaycan Respublikasının Mərkəzi Bank haqqında" qanuna görə, bu qurum dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir, nağd pul dövriyyəsini təşkil edir, Azərbaycan Respublikası Konstitusiyasının19-cu maddəsinin II hissəsinə və bu qanuna müvafiq olaraq pul nişanlarının tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirir. Eyni zamanda, manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir, "Valyuta tənzimi haqqında" qanuna uyğun olaraq valyuta tənzimini və nəzarətini həyata keçirir, sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarım saxlayır və idarə edir, qanunvericiliyə uyğun olaraq hesabat tədiyə balansım tərtib edir və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak edir, ölkənin icmal (dövlət və qeyri-dövlət) xarici borc statistikasını və beynəlxalq investisiya balansını tərtib edir, məlumatların ümumiləşdirilməsini və yayılmasını təmin edir və s. Mərkəzi Bankın mənfəəti isə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq gəlirlərdən xərclərin çıxılması ilə hesablanır. Mərkəzi Bankın gəlirləri bu qanuna müvafiq olaraq həyata keçirdiyi fəaliyyətdən əldə etdiyi gəlirlərdən və qanunvericiliyə zidd olmayan digər mənbələrdən daxil olan vəsait hesabına formalaşır. Mərkəzi Bankın mənfəətinin bölüşdürülməsinə gəlincə, hesabat ilinin mənfəəti ilk növbədə bu mövcud qanunvericilikdə nəzərdə tutulmuş normativə uyğun olaraq Mərkəzi Bankın kapital ehtiyatlarının formalaşdırılmasına yönəldilir.

Kapital ehtiyatları formalaşdırıldıqdan və Mərkəzi Bankın illik maliyyə hesabatı auditor rəyi ilə təsdiqləndikdən sonra reallaşdırılmış mənfəətin sərbəst qalığı dövlət büdcəsinə (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müraciətinə əsasən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fonduna) köçürülür. Yəni, Mərkəzi Bankın 1 manatı belə qanunsuz xərcləməyə ixtiyarı yoxdur. Məncə, bina məsələsi və Mərkəzi Bank sədrinin bununla bağlı açıqlaması çox şişirdilir. Hesab edirəm ki, bu məsələdə Mərkəzi Bank rəhbəri fikrini tam ifadə edə bilməyib".

✍ *Sevinc*

# ÜST 9 azərbaycanlı həkimə sertifikat verib

**Azərbaycanlı həkimlər ÜST-ün "Səhiyyə sistemində ölkələrarası dərmanlara, COVID-19 və digər peyvəndlərə effektiv nəzarət və monitorinqin gücləndirilməsi" mövzusunda sertifikatlaşdırma proqramında iştirak edib ÜST-ün Azərbaycanda nümayəndəliyindən hafta.az-a bildirilib ki, 7-11 dekabr 2020-ci il tarixdə 9 azərbaycanlı həkim onlayn formada baş tutmuş təlimi başa vuraraq imtahanlardan uğurla keçib və Ümumdünya Səhiyyə Təşkilatının sertifikatını əldə edib.**




Qeyd olunub ki, hazırda COVID-19-a qarşı peyvəndin hazırlanması və tətbiqi virusla mübarizədə çox vacib vəzifəyə çevrilib: "Artıq bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda, peyvəndlərin vurulmasına başlanılıb. Peyvəndləmə zamanı təhlükəsizlik və mümkün yan təsirlərin vaxtında müəyyənləşdirilməsi və aradan qaldırılması çox önəmlidir. Bununla əlaqədar olaraq, yan təsirlərin müəyyənləşdirilməsi və qeydiyyatı üzərində nəzarəti gücləndirmək üçün ÜST farmakonəzarətlə bağlı ölkələrarası təlim təşkil edib və təlimdən sonrakı imtahanda Azərbaycan təmsilçiləri iştirakçı ölkələr arasında ən yüksək nəticə əldə edib".

"Peyvənd və ya dərmanların klinik sınaqlarda təhlükəsiz olduğu sübut edildikdən sonra onların real həyat şəraitində də təhlükəsiz və təsirli olmağa davam etdiyini izləmək çox vacibdir", deyə təlimi uğurla başa vuran həkimlərə sertifikatlarını təqdim edən ÜST-ün Azərbaycandakı Nümayəndəsi Hande Harmancı bildirib. Farmakonəzarətin məhz bunu həyata keçirdiyini söyləyən ÜST-ün nümayəndəsi əlavə edib ki, buna görə də farmakonəzarət sahəsində çalışan tibb işçilərinin biliklərinin mütəmadi olaraq yenilənməsi çox önəmlidir.

Tədbirdə, həmçinin, ÜST-nin Avropa Regional Ofisinin təmsilçisi Dr Oleksandr Polişçuk və Azərbaycandakı Nümayəndəliyinin eksperti Dr Cəvahir Süleymanova çıxış edib. Sertifikat alan həkimlər də öz növbəsində təlim proqramı və əldə etdikləri yeni biliklər barədə fikirlərini bölüşüblər.

# Azad olunmuş ərazilərdə abidələrin bərpasına nə vaxt baxılacaq?

**Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar və komendantlıqların nəzdində aidiyyəti dövlət orqanlarının (qurumlarının), o cümlədən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılıb.**



Bu barədə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən bildiriblər. Qeyd olunub ki, Mədəniyyət Nazirliyini təmsil edən nümayəndələr abidələrin ilkin inventarlaşdırılması məqsədilə monitorinqlərə başlamış və abidələrin əksəriyyətinin dağıdıldığı, məhv edildiyi, mənimsənildiyi və vandalizmə məruz qaldığı müəyyən edilib. "Monitorinqlər yekunlaşdıqdan sonra işğaldan azad olunmuş ərazilərdə neçə heykələ ziyan dəydiyi müəyyənləşəcək. Monitorinqlərin nəticəsi təhlil olunduqdan sonra işğaldan azad olunmuş ərazilərdə yerləşən abidələrin bərpası məsələsinə baxılacaq".

## XƏBƏR LENTİ

### FHN-in əməkdaşları Türkiyədə kurs keçiblər

**Fövqəladə Hallar Nazirliyi (FHN) Xüsusi Riskli Xilasetmə Xidmətinin 23 nəfərdən ibarət pirotexnik və istehkam qrupu Türkiyə Respublikası Milli Müdafiə Nazirliyi Baş Qərargahının Bakı Silahlı Qüvvələr Attaşeliyinin təşkilatçılığı ilə qardaş ölkədə Xüsusi Mina Axtarış və Təmizləmə kursunu müvəffəqiyyətlə bitirərək Azərbaycana qayıdıb.** Bu barədə hafta.az-a Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, 3-29 yanvar tarixlərində İzmir şəhərində İstehkam Məktəbi və Təlim Mərkəzi Komandanlığında keçirilən kurslarda iştirak edən FHN əməkdaşları ərazilərin minalardan təmizlənməsi və zərərsizləşdirilməsi sahəsi üzrə bilik və bacarıqlarını təkmilləşdiriblər. Kursun yekununda şəxsi heyətə təlim-tədris prosesini bitirmələri barədə sertifikatlar təqdim olunub.




Bundan əlavə, Türkiyə Milli Müdafiə Nazirliyi tərəfindən ikitərəfli əməkdaşlıq münasibətləri çərçivəsində Azərbaycan FHN-ə 10 xüsusi təlim keçmiş minaaxtaran it də hədiyyə edilib. FHN-in kinoloqlarının həmin itlərin ölkəmizə gətirilməsi, həmçinin müvafiq sahədə bacarıqlarının artırılması məqsədilə Türkiyəyə ezam olunması üçün hazırlıq işləri görülür.

### "Azərbaycan ilə əməkdaşlıq etmək istəyirik"

**"Türkiyə Texnologiya Vəqfi olaraq texnofestival çərçivəsində Azərbaycan ilə əməkdaşlıq etmək istəyirik".**

Bunu "Bayraktar TB2" pilotsuz uçuş aparatının yaradıcısı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın kürəkəni Səlcuq Bayraqdar deyib. "Yaxın zamanlarda Azərbaycan ilə bu məsələdə təmaslarımız olacaq", - deyə o vurğulayıb.

### Navalnının həbsi "sırf qorxaqlıq"dır

**Böyük Britaniyanın Baş naziri Boris Conson Rusiya məhkəməsinin müxalif siyasətçi Aleksey Navalnını həbsə və cəzaçəkmə müəssisəsinə göndərmək haqqında qərarını "sırf qorxaqlıq" adlandırıb.**



Bu barədə o, özünün Tvitter hesabında yazıb. Baş nazir Conson Aleksey Navalnının Almaniyadan ölkəsinə geri dönməsini əsl cəsarət nümunəsi adlandırıb. Avstriya kansleri Sebastyan Kurts da həmkarını mövqeyinə dəstək verərək dərhal Aleksey Navalnının və həbs olunan dinc nümayişçilərin həbsdən buraxılmasını tələb edib. "Ədalət və hüquqdan siyasi məqsədlərlə istifadə etmək yolverilməzdir", - deyə Kanadanın Baş naziri Castin Trüdo qeyd edib. "Aleksey Navalnı haqqında verilən hökm istənlən halda qanunilikdən uzaqdır", - deyə AFR hökumətinin sözcüsü Şteffen Zaybert kansler Angela Merkelin mövqeyini çatdırıb. Fransa dövlət başçısı Emmanuel Makron isə siyasi fikir ayrılıqlarının cinayət hesab edilmədiyini, insan haqları və demokratik azadlıqlara hörmət olunması prinsipinin müzakirəyə açıq sayılmadığını vurğulayıb. Avropa Birliyinin xarici siyasət idaərsinin rəhbəri Josep Borrel Rusiyanın bu qərarla özünün beynəlxalq institutlar qarşısındakı öhdəliklərini pozduğunu vurğulayıb.

### Səlim Müslümov həbs edilib?

**Bir sıra KİV-də sabiq əmək və əhalinin sosial müdafiə naziri Səlim Müslümovun həbs edilməsi və bu barədə S.Müslümovun yaxınlarının məlumatı təsdiqlədiyi ilə bağlı xəbərlər yayılıb.** Məlumatda bildirilir ki, sabiq nazir sürücüsü və yaxın qohumu ilə birlikdə saxlanılıb. Məsələ ilə bağlı açıqlama verən S.Müslümovun atası Yanvar Müslümov yayılan məlumatları təkzib edib. O bildirib ki, sabiq nazirin həbs edilməsi barədə yayılan məlumatlar həqiqəti əks etdirmir: "Bəzi saytlar yazıblar ki, guya Səlim Müslümov həbs olunub. Vallah, yalan söhbətdir, Səlimlə səhər danışmışam, həbs edilməyib. Bu məlumatı kim yayıb, bilmirəm. Səhər oğlumla özüm danışmışam, hər şey yaxşıdır".



### "Avroviziya-2021" təmsilçimiz müəyyənləşib

**İctimai Televiziya və Radio Yayımları Şirkəti "Avroviziya-2021" Beynəlxalq Mahnı Müsabiqəsi üçün musiqi qəbulunu başa çatdırıb. Müsabiqənin Azərbaycandakı nümayəndə heyətinin rəhbəri İsa Məlikov bildirib ki, seçim mərhələsinə yerli və xarici müəlliflərdən 229 kompozisiya təqdim olunub.**

"Komandamız hər bir mahnını layiqincə qiymətləndirmək üçün onaların hər birini bir neçə dəfə dinlədi. Onların arasında həqiqətən gözəl kompozisiyalar var idi, onlardan altı ən yaxşısı bizim şort-listimizə düşmüşdü. Hər zaman olduğu kimi, janrdan asılı olmayaraq, gözəl və peşəkar mahnı axtarmağa çalışdıq. Bu il də ilk növbədə, biz onun ifaçı ilə nə dərəcədə uzlaşacağını nəzərə alırdıq", - deyə bəstəkar və prodüser İsa Məlikov qeyd edib.

Nümayəndə heyətinin rəhbəri bildirir ki, Avropa Yayımları Birliyinin (AYB) tələblərinə uyğun olaraq, hər bir mahnının müddəti 3 dəqiqədən çox olmamalıdır. Seçim prosesinə əsasən, mahnı növbəti mərhələdə müxtəlif ölkələrdən olan 50-dən çox "Avroviziya" mütəxəssisindən ibarət beynəlxalq fokus-qrupunun səsverməsi əsasında seçiləcək. Mahnının rəsmi təqdimatı martın ikinci həftəsində baş tutacaq. Müsabiqədə ölkəmizi müğənni Əfəndi təmsil edəcək. Bu il "Avroviziya" mahnı müsabiqəsinin yarımfinal mərhələsinin Mayın 18-i və 20-də, final mərhələsinin isə Mayın 22-də Rotterdam (Niderland) şəhərində keçiriləcəyi planlaşdırılır.

## Xüsusi müxbir



**Şöhrət Eyvazov,**
İT-nin böyük redaktoru,
Qarabağ müharibəsi veteranı

***44** günlük Vətən Müharibəsi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan əsgərlərimiz, qazilərimiz böyük qəhrəmanlıq dastanı yazdılar. Müharibədə informasiya sahəsində mübarizə aparan jurnalistlərimiz də günün önəmli təbliğatçıları olaraq qabaq sırada dayandılar. “Həftə içi”nə müsahibə verən qonağımız - İctimai Televiziyanın İnformasiya Departamentinin böyük redaktoru, Qarabağ müharibəsi veteranı, ehtiyatda olan kapitan Şöhrət Eyvazov müharibə və hərbi jurnalistika ilə bağlı bir çox məqamlara diqqət çəkib. Qeyd edək ki, 2002-ci ildən media sahəsində çalışan həmsöhbətim 2007-ci ildən Qarabağ bölgəsində hərbi jurnalist kimi fəaliyyət göstərib.*

# “Bizim silahımız kamera və mikrofondur”

***- Şöhrət bəy, 44 günlük Vətən Müharibəsi başlayanda bir jurnalist olaraq hara ezam edildiniz və ilk təəssüratınız nə oldu?***

- Sentyabr 27-də başlayan döyüş əməliyyatlarının ilk günü Tərtər istiqamətində idik. Bura Bakıdan iki media qrupunun gəldiyini biləndə cənub istiqamətinə - Füzuli-Cəbrayıl bölgəsinə getməyi qərara aldıq. İlk təəssüratım xalqımızın Ordumuza verdiyi dəstəyin möhtəşəmliyi oldu. Eləcə də ön xəttə yollanan hərbçilərdə ruh yüksəkliyini, döyüş həvəsini sezməmək mümkün deyildi. İlk gün olmasına baxmayaraq, Horadiz şəhərinə, Cocuq Mərcanlıya qədər gəlib hərbçilərimizə dəstək olmaq istəyən, hətta döyüşlərə qatılmaq istəyən yüzlərlə insanla rastlaşdıq. Yaralanan əsgərin əlini tələsik sarıtdırıb, “Mən döyüş yoldaşalrımı tək qoya bilmərəm”, - israrına şahid olduq.

***- Hərbi çəkilişlərə gedən jurnalist olaraq nə dərəcədə hazırlıqlı idiniz? “Mən o anı heç vaxt unutmaram”, - dediyiniz an hansı məqam idi? Ən çox diqqətinizi çəkən hadisələr hansılardır?***

- Bilirsiniz, mən özüm Birinci Qarabağ müharibəsində zabit kimi iştirak etmişəm, ehtiyatda olan kapitanam. İyirmi ildir ki, hərbi jurnalistikadayam. 2007-ci ildən İctimai Televizyanın Qarabağ müxbiriyəm. “Ekstemal jurnaslitika” ilə bağlı təlimlərdə mühazirələr oxumuşam. 2016-cı ilin Aprel döyüşləri vaxtı cəbhə xəttində çəkilişlər eləmişik. Yəni, hərbçi və ya jurnalist kimi bu və ya digər dərəcədə təsirli səhnələrdə iştrakçı və şahid olmuşam. Cinayətkar, terrorçu Ermənistanın oktyabrın 27 və 28-də Bərdəyə atılan “Smerç” raketlərinin törətdiyi dəhşətlə müqayisə olunacaq heç nə görməmişəm. Maşınlarda yanmış insanlar, qızını qucaqlasa da mərmidən xilas ola bilməyən ata-bala, yaxınlarını axtaran qadın və uşaqların nalələri uzun müddət gözümün qabağından getməyib.

> *Bərdəyə atılan “Smerç”raketlərinin törətdiyi dəhşətlə müqayisəolunacaq heç nə görməmişəm*

Elə həmin yerdə soydaşlarımzın “Son ana qədər ordumuzlayıq, evimiz dağılsa da, azad edilmiş ərazilərdəki Müqəddəs Bayrağımızın kölgəsində yaşayacağıq” sözlərini də unuda bilmirəm. 44 gün boyunca diqqətimi çəkən məsələ xalqımızın bütün müddət ərzində orduya inamının və sevgisinin hər gün artması idi.

***- Erməni vəhşiliyini görən bir jurnalist olaraq heç düşündünüzmü ki, heyf ki, silahım yoxdur?***

- Xeyr, bilirdim ki, Azərbaycan Ordusu bu şərəfsiz terrorçuların cavabını artıqlaması ilə verir. Məsələn, Bərdə terrorundan, demək olar ki, həmən sonra düşmənin Bərdəni raket atəşinə məruz qoyan raket komplekslərinin ordumuz tərəfindən darmadağın edilməsinin görüntüləri yayıldı. Bir də ki, bizim silahımız kamera və mikrofondur. Çalışdıq ki, informasiya cəbhəsində bacardığımızı eləyək.

***- Müharibədə hərbi jurnaistika ilə bağlı hansı boşluqları müşahidə etdiniz?***

- 44 günlük savaşda Müdafə Nazirliyi yalnız öz xüsusi qruplarını azad edilmiş ərazilərə ezam edirdi. Yerli media, hətta xarici media orqanlarından xeyli sonra həmin ərazilərə buraxılırdı. Baxmayaraq ki, məsuliyyət və təcrübə baxımından geridə qalmayan onlarca əməkdaşımız var idi. Bəzi media nümayəndələri xüsusi treninq və kurslar keçmədən, hətta hərbi xidmətlə bağlı elementar anlayışları bilmədən cəbhə xəttinə buraxılmışdılar. Buna görə də canlı efirdə düşmən mərmisinin düşdüyü yerin ümumi görünüşünün göstərilməsi və yaxud nəyin yaxınlığına düşdüyünün deyilməsi kimi informasiya təhlükəsizliyini pozan məlumatlar verildi.

Ermənistan mediasının dezinformasiyaların qarşısını almaq üçün daha sistemli addımlar atılmaqda bəzən gecikmələr olurdu.

***- Bəzən bu müharibədə “Xarici jurnalistlər daha operativ idi” sözlərini, yəqin ki, siz də eşitdiniz? Bunu nə ilə izah edərdiniz, bizim jurnalistlər nədə geridə qalırıdı?***

- Bu haqda fikirlərimi yuxarıda ümumi şəkildə bildirdim. Bir daha vurğulayıram ki, Müdafiə Nazırlıyinin bəzən hansısa xarici media orqanına “yaşıl”, bizə isə “qırmızı” işıq yandırmasını təəssüflə qarşılayırdıq. Baxmayaraq ki, həmin xarici jurnalistlərin azad edilmiş ərazilərdə doğru olmayan kadrları olurdu. Ola bilsin ki, cəbhə xəttində çox media nümayəndəsi var idi, lakin onların arasından azsaylı peşəkar qruplar seçmək mümkün, hətta zəruri idi.

***- Deməli, jurnalistin irəli getməsinə icazə verilmirdi və bu da o deməkdir k, qızğın döyüş səhnələrini çəkə bilməmisiniz. Buna görə təəssüf edirsiniz?***

- Əlbəttə, təəssüf edirəm. Əsasən, ordumuzun qarşı tərəfə artilleriya atışlarını, yaşayış məntəqlərimizin atəş altında saxlanılmasını, Ermənistanın mülki əhaliyə qarşı terrorunun ağır nəticələrini, ordu-xalq birliyini və təbii ki, icazə veriləndə azad edilmiş əraziləri çəkə bilirdik. Buna görə də məğlub olan Ermənistanın əlində döyüş çəkilişləri daha çoxdur.

***- Müharibədə jurnalistin bir mülki şəxs kimi təhlükəsizliyinin qorunması özünün öhdəsinə düşürdü. O zaman Azərbaycan hərbi jurnalisti necə davranmalı, özünü necə qorumalı idi?***

- Cəbhə bölgəsinə ezamiyyətlərinin qəfil olması nəticəsində bölgəyə gələn media nümayəndələri, yumşaq desək, “hərbi rejim” haqqında azməlumatlı idilər. Doğrudur, onların əksəriyyəti tez adaptasiya oluna bildi. Yaralanma riskini nəzərə almadıqlarına görə, ilkin tibbi yardım biliklərindən xəbərsiz idilər. Mərmi təhlükəsi və digər riskli hallarda davranış qaydalarını da bilmirdilər. Riskli bölgədə fəaliyyət göstərən jurnalistlərin həyat sığortası yox idi. Düzdür, döyüşün ilk günlərindən media nümayəndələrimzin xüsusi gödəkcə və dəbilqələrlə təminatı həyata keçirilirdi. Beynəlxalq hüquqa məhəl qoymayan erməni terrorçuları “PRESS” xəbərdarlığına baxmayaraq, yerli və xarici media nümayəndələrini bilərəkdən atəş altında saxlamağa çalışırdı və saxladı da.

Bundan nəticə çıxarmalı, müvafiq kurslar təşkil edilməli, yerli və xarici təcrübə öyrədilməlidir.

***- Deyə bilərikmi ki, bizdə də hərbi jurnalistikanın formalaşmasına start verildi, yaxud formalaşdı?***

- Məncə, belə deyə bilərik: bu sahədə reallıqlar ortaya çıxdı. Bu reallıqlardan dərs alıb, hərbi jurnalistikanın formalaşmasına təkan verməliyik. Yəqin ki, yeni yaradılan Medianın İnkişafı Agentliyi aktuallığı nəzərə alıb, bu məsələni diqqətdə saxlayacaqdır.

***- Hərbi döyüş yolu keçən jurnalist kimi, bu müharibənin növbəti mərhələsində aparacağımız mübarizənin gələcəyi ilə bağlı hansı düşüncələriniz var?***

- Deyirlər ki, sülh istəyirsənsə, müharibəyə hazır olmalısan. Ermənistan tərəfinin müharibə ritorikası, əslində, münaqişə ocağının nə vaxtsa alovlana biləcəyinin mövcudluğudur. Ermənistanın özünə gəlməsinə, ən azından, xeyli vaxt lazım olacağı qənaətindəyəm. Bununla belə, nə qədər ki, “erməni xəstəliyi”, “erməni faşizmi” ideologiyasından ayrılmayacaqlar, Ermənistan həm Qafqaz, həm də bütün dünya üçün təhlükə mənbəyi olaraq qalacaq.

Havadarlarının köməkliyi ilə 28 il müddətində torpaqlarımızı işğal edən Ermənistanın 44 gündə bu əraziləri təhvil verməyə məcbur olduğunu unutmamalıyıq. Müharibədə qoyub-qaçdığı texnikalar, sursatlar, 10 mindən çox fərari sayı ilə erməni ilanının zəhər dişi sınıb. Sadəcə, ehtiyatlı və diqqətli olmalı, ərazi bütövlüyümüzün bərpasının təhlükə altında qalmasına imkan verməməliyik.

***- Ordumuz qələbə çaldı, amma 44 günlük müharibənin ağır fəsadları qalır və aradan qaldırılmalıdır. Azad olunmuş ərazilərimizdən təəssüratlarınız necədir?***

- Cəbrayılda, Ağdamda, Füzulidə, Zəngilanda və Qubadlıda bir neçə yaşayış məntəqəsini çıxmaq şərti ilə hər şeyi darmadağın ediblər. Bilirdilər ki, müvəqqətidirlər. Birinci dəfə görəndə insanın qəlbini dərin hüzn bürüyür. Sonra tezliklə buraların abadlaşacağını düşünüb təskinlik tapırsan. Qarabağ üzüyünün brilyant qaşı olan Hadruta və mədəniyyət beşiyimiz Şuşaya səfər isə insanın ruhuna dinclik verir. Necə xoşdur təkrarlamaq: “Qarabaq Azərbaycandır!” və “Əziz Şuşa, biz qayıtdıq...”.

*✍ Tahirə Qafarlı*

## Media

# Türkiyə-Azərbaycan media platforması

***Xəbər verdiyimiz kimi, “Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında media sahəsində strateji əməkdaşlıq haqqında” Anlaşma Memorandumu imzalanıb. Məlum Anlaşma Memorandumunun imzalanması ikitərəfli media siyasətinin təkmilləşdirilməsi baxımından müsbət qiymətləndirilməklə yanaşı, perspektivləri müzakirə olunur. Artıq sənəd Milli Məclisdə də təsdiqlənib.***



**Aydın Quliyev,**
“Bakı xəbər” qəzetinin
baş redaktoru

> *Bu gün Türkiyə və Azərbaycan medialarının vahid platormada birləşməsinə daha çox ehtiyac var*

**■ Bu barədə “Həftə içi”nə danışan politoloq, “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev bildirib ki, Türkiyə ilə Azərbaycan mediası arasında Anlaşma Memorandumunun imzalanması və hər iki ölkənin parlamentləri tərəfindən təsdiq olunaraq qanuni status alması böyük perspektivlərdən xəbər verir.**

“Türkiyə ilə Azərbaycan mediası arasında əməkdaşlığın əsasları çoxdan qoyulub. İlk dəfə olaraq bu, sistemli və qanuni status almış platforma əsasında həyata keçirilir. Bu gün hər iki ölkənin beynəlxalq miqyasda üzləşdiyi bir sıra problemlər var. İki ölkənin media platformalarının birləşdirilməsi, eyni hədəfləri götürmələri medialar arasında informasiya və texniki təcrübə mübadilələrinin keçirilməsi üçün mühüm hadisədir. Bu gün Türkiyə və Azərbaycan medialarının vahid platormada birləşməsinə daha çox ehtiyac var”. A.Quliyev bu platforma çərçivəsində bizim medianın Türkiyə mediasından öyrənə biləcəyi müsbət təcrübələrə diqqət çəkib.

“Azərbaycan çap mediasının Türkiyə mediasının səviyyəsini fəth etməsinə çox var. Türkiyə mediasında “reket jurnalistikası, qeyri-peşəkarların müəyyən monopolist mövqedən çıxış etməsi, jurnalsit peşəkarlığı ilə bağlı nöqsanlarına rast gəlməmişəm. Bunlar Azərbaycan mediasında var.

Eləcə də Türkiyə mediası istər onlayn, istərsə də çap mediası, audio-vizual sahədə böyük təcrübələrə malikdir. Bu təcrübələrin öyrənilməsi Azərbaycan üçün önəmi ola bilər. Eyni zamanda, bizim də Türkiyə mediasına verə biləcəyimiz nailiyyətlərimiz var. Xüsusilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyinin Azərbaycan mexanizmi Türkiyə üçün maraqlı ola bilər. Hazırda Türkiyə mediasına dövlət dəstəyinin gücləndirməsi, yad təsirlərdən qorunmasına çox ciddi ehtiyac yaranıb”.

**■ Millət vəkili Hikmət Babaoğlu bildirir ki, Vətən müharibəsi zamanı informasiyanın nə qədər güclü bir silah olduğunu və Azərbaycan Prezidentinin bu silahdan düşmənin informasiya müharibəsinə qarşı necə məharətlə istifadə etdiyini gördük.** Onun szölərinə görə, qardaş Türkiyənin mediası ilə ortaq əməkdaşlıq və koordinasiya edilmiş fəaliyyət bizim qlobal informasiya məkanında gücümüzü daha da artıracaq və ortaq media platforması yaradılacaq. Sənəddə əlaqələrin və qarşılıqlı anlaşmanın təmin edilməsində medianın rolu xüsusi olaraq önə çəkilir və bunun inkişaf etdirilməsinin zəruriliyi qeyd edilir.

Bu, çox mühüm məsələdir. Ona görə ki, qarşılıqlı dil, ünsiyyət anlaşması olmasa, birgə mediadan və onun səmərəli fəaliyyətindən də danışmaq olmaz”.



**Hikmət Babaoğlu,**
millət vəkili

> *Sənəddə elə bir ortaq ünsiyyət mühitindən danışılır ki, orada anlaşma problemi yoxdur və bu vəzifə kimi müəyyənləşdirilir*



H.Babaoğlunun fikrincə, dolayısı ilə sənəddə elə bir ortaq ünsiyyət mühitindən danışılır ki, orada anlaşma problemi yoxdur və bu vəzifə kimi müəyyənləşdirilir. Millət vəkili bu çağırışların bəzi media institutlarımız tərəfindən lazımi qədər diqqətə alınmadığına ttəssüflə yanaşıb. O, xüsusən son dövrlərdə Azərbaycan televiziya kanallarında efirə verilən türk film və seriallarının Azərbaycan dilinə tərcümə edilməsini qınayıb.

“Bu, imzalanan memorandumda irəli sürülən məqsədlərlə bir qədər uyğun gəlmir. Belə çıxır ki, hər gün televiziya efirində ekspert, şərhçi qismində çıxış edən türkiyəli mütəxəssislərin də fikirlərini tərcümə edib efirə verməliyik? Bu, doğru deyil. Böyük Mirzə Ələkbər hələ öz dövründə buna etiraz edərək, “türkcədən türkcəyə tərcümə də nə demək”, - deyə fikir bəyan etmişdi.

Bəzi hallarda bununla da ürəyimiz soyumur, qardaş Türkiyə Cümhuriyyətinin adını Türkiyə Respublikası kimi tələffüz edirik. Bu, əsla yolverilməzdir. Ona görə də fikrimcə, televiziyalarımız türk filmlərini tərcümə edərək efirə verməməlidirlər. Tam əksinə, Türkiyə televiziyaları ilə birlikdə Vətən müharibəsindən bəhs edən filmlər, seriallar çəkməlidirlər”. Hikmət Babaoğlu bu sənəddə öz əksini tapan məqsədlərin bütün mediamızın fəaliyyət proqramına çevriləcəyinə ümidvar olduğunu söyləyib.

*✍ Tahirə Qafarlı*



**■ Ukraynanın “Müxalif platforması - Həyat uğrunda” partiyası bır sıra telekanalların bağlanması qərarından sonra Prezident Vladimir Zelenskiyə qarşı impiçment proseduruna başlayır.**

Bunu Ali Radanın deputatı Vadim Rabinoviç parlamentin tribunasından bildirib.

“Bu gün siz demokratiyanın və azad sözün ürəyinə zərbə endirdiniz. Bu gün demokratik, müstəqil Ukrayna təhlükə altındadır. Yaxın vaxtlarda biz partiyanın fövqəladə qurultayını keçirəcəyik, hansı ki, bizim gələcək addımlarımızı müəyyən edəcək”.



**■ Fevralın 5-dən etibarən 65 yaşdan yuxarı vətəndaşlar qeydiyyatdan keçiriləcək. Bu barədə mətbuatın sorğusuna cavab olaraq Nazirlər Kabinetindən bildirilib.**

Qeyd olunub ki, 65 yaşdan yuxarı qeydiyyatdan keçmiş hər bir vətəndaşa SMS məlumat göndərilərək peyvəndləşməyə dəvət olunacaq. Məlumata əsasən fevralın 8-dən başlayaraq bu yaş qrupuna aid olan vətəndaşlara peyvənd vurulacaq. Ölkədə bu kateqoriyaya aid olan təqribən 700 000 vətəndaş var.



**■ 2020-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə Türkiyəyə 208,064 milyon barel xam neft nəql edilib. Bu barədə Türkiyənin BOTAŞ şirkəti məlumat verib. Qeyd edək ki, 2019-cu bu göstərici 235,243 milyon barelə bərabər olmuşdu.**

Yanvar-dekabr ayları arasında Türkiyəyə BTC ilə ən yüksək neft nəqli aprel ayında (20,133 milyon barel), ən az nəql noyabr ayında (15,593 milyon barel) qeydə alınıb.

Türkiyə BTC vasitəsilə yanvarda 19,885 milyon barel,dekabrda 16,506 milyon barel neft idxal edib.



**■ Səudiyyə Ərəbistanı yeni növ koronavirus (COVİD-19) pandemiyası səbəbindən 20 ölkədən krallığa girişi müvəqqəti olaraq qadağan edib.**

Hafta.az-ın ”TASS”a istinadən verdiyi məlumata görə, krallığın Daxili İşlər Nazirliyinin bu barədə qərarı fevralın 3-ü saat 21:00-da qüvvəyə minir. Bildirilir ki, müvəqqəti olaraq ”qara siyahı”ya Argentina, Braziliya, Böyük Britaniya, Almaniya, Misir, Hindistan, İndoneziya, İrlandiya, İtaliya, Livan, BƏƏ, Pakistan, Portuqaliya, ABŞ, Türkiyə, Fransa, İsveç, İsveçrə, CAR və Yaponiya daxil edilib.



**■ Pandemiya səbəbindən ölkədə bal satışında problemlər yaşanıb. Bunu Trend-ə açıqlamasında Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov deyib.**

Onun sözlərinə görə, 2020-ci ildə istehsalda elə də problemlər olmasa da satışda müəyyən çətinliklər olub: “Pandemiya olmasına baxmayaraq, arı istehsalında elə də geriləmə baş verməyib. İlk günlərdə arıçıların istehsal yerinə gediş-gəlişində problem yaransa da sonradan dövlətimiz kənd təsərrüfatı sahəsinə müəyyən güzəştlər etdi və sözügedən problem aradan qaldırıldı.



**■ Rusiyanın Baş naziri Mixail Mişustin Azərbaycan və Ermənistanla hava əlaqəsinin bərpasına dair sənəd imzalayıb.**

Hafta.az-ın RİA ”Novosti”yə istinadən verdiyi məlumata görə, bu barədə Rusiyanın Nazirlər Kabinetinin mətbuat xidmətinin açıqlamasında deyilir. ”15 fevral 2021-ci il tarixindən etibarən qarşılıqlı olaraq Azərbaycan (Moskva - Bakı, həftədə iki uçuş) və Ermənistanla (Moskva - İrəvan, həftədə dörd uçuş) beynəlxalq uçuşların bərpa edilməsinə dair qərar verilib”, - açıqlamada deyilir.



**■ “Azərbaycan tərəfi Naxçıvan dəhlizi ilə bağlı iş aparır”. Bunu Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlu deyib.**

O, Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin inşası və “Marmaray” layihəsinin buraya inteqrasiya edilməsi ilə Pekindən Londona qədər fasiləsiz “Dəmir İpək Yolu”nun meydana çıxdığını vurğulayıb.

Nazirin sözlərinə görə, Bakı-Tbilisi-Qars dəmiryolu xətti ilə əlaqədar Gürcüstan-Azərbaycan-Rusiya-Qazaxıstan-Xəzər dənizi istiqamətində aktiv bir hərəkətlilik başlayıb.

## Müsahib

# Azərbaycanda biznesi qeydiyyatdan keçirmək asandır

***Azərbaycan Ordusu Vətən torpaqlarını işğaldan azad etdi. İndi isə bu ərazilərin minalardan təmizlənməsi və sonra da tikinti-bərpa işlərinə start veriləcək. Əslində, artıq bu prosesə başlanılıb, ərazilərin minalardan təmizlənməsi ilə yanaşı yollar salınır, zəruri iqtisadi-dayaq mənbələri tikilir, hətta Füzulidə beynəlxalq hava limanı inşa olunur. Özü də bütün bu işlərə xarici, xüsusilə də Azərbaycanla dost ölkələrin şirkətləri cəlb edilib və ya edilir. Quruculuq prosesində iştirak etmək istəyən ölkələrdən biri də dost Qazaxıstandır. Bizimlə söhbət edən qazaxıstanlı iş adamı Kuanış Kalijanov Hafta.az-a müsahibəsində deyir ki, işğaldan azad edilmiş ərazilərin bərpasında iştirak etməyə hazırdır və Azərbaycan Hökumətinə "Smart City" sistemlərinin yaradılması ilə bağlı Qazaxıstanın təcrübəsini təklif edirlər. O, Azərbaycanda xarici şirkətlər üçün yaradılan asan iş şəraitini diqqətə çatdıraraq, bütün sərmayədarları ölkəmizə dəvət etdi:***



**Kuanış Kalijanov,**
qazaxıstanlı iş adamı

- Uzun müddətdir ki, Almaniyanın "Thyssenkrupp elevator" konserninin liftlərinin quraşdırılması layihəsinin icrası çərçivəsində Bakıdayam. Böyük bir tikinti şirkəti üçün layihə həyata keçiririk. Burada müəyyən edilmiş standartlar, reqlamentlər, qaydalar adi tikintidən daha yüksəkdir. Biz Azərbaycan layihəsi üzərində Türkiyə şirkəti ilə işləyən Rusiya bölməsinin timsalında alman konserninin Azərbaycan filialı olaraq, çoxqütblü, çox vəzifəli və çoxşaxəli şəraitdə işləmək məcburiyyətindəyik. Bu şəraitdə yerli gömrük, vergi qanunvericiliyini, mühasibat və hesabat sistemlərinin xüsusiyyətlərini ana şirkətimizin və müştərinin şirkətinin tələb və standartları ilə düzgün ahəngləşdirmək lazımdır. Bəzən tikinti cizgilərin, bina kodlarının və parametrlərinin unifikasiyası səy və vaxt istəyir, quraşdırma texnologiyalarını hərfi mənada ayaq üstdə dəyişdirməyə məcbur edir. Bu işdə azərbaycanlı mütəxəssislərin böyük xidmətləri və köməyi var.

Quraşdırıcılar heyəti tamamilə yerli işçilərdirdən ibarətdir, uşaqlar çalışqan və vicdanlıdırlar. Ümumiyyətlə, Azərbaycanda biznesi qeydiyyatdan keçirmək çətin deyil. Dünya Bankının hesabatlarına əsasən tərtib edilən "Doing Business" reytinqinə görə, Azərbaycan Gürcüstan və Özbəkistandan sonra ölkələrin sıralamasında ilk onluqdadır. ASAN xidmət vasitəsi ilə dövlət xidmətləri göstərilməsi sistemdən, karantin şəraitində icazə və SMS icazələrin avtomatlaşdırılmasından da məmnun qaldım.

***- Qazaxıstanla Azərbaycan arasında ticarət-iqtisadi münasibətlərin indiki vəziyyəti necədir? Sizcə, ticarətin inkişafı üçün nələr etmək lazımdır?***

- Birincisi, potensial imkanları nəzərə alsaq, son illərdə 200 milyon dollarlıq ticarət dövriyyəsi, ölkələrimiz üçün çox deyil. Xarici ticarət dövriyyəsi bir milyarda çatdırıla bilər və bu realdır. İkincisi, ölkələrimizin iş adamları bir-birlərinin imkanlarını barədə zəif biliklərə sahibdirlər. Ümid edirəm, Qazaxıstanda və Azərbaycanda açılan Ticarət Evləri ölkələrimizin sahibkarlarını bir-birinə yaxınlaşdırmaq üçün planlarını həyata keçirə biləcəklər. Üçüncüsü, Qazaxıstanın Gömrük İttifaqı çərçivəsində öhdəlikləri Azərbaycanda ticarət və investisiya azadlığını məhdudlaşdırmamalıdır. Dördüncüsü, qarşılıqlı ticarətdə disbalans var və ticarət dövriyyəsinin əhəmiyyətli hissəsi - təxminən, 80 faizi Qazaxıstan buğdasının, neft məhsullarının, bəzi neft və qaz mühəndisliyi növlərinin ixracından ibarətdir; Azərbaycanın Qazaxıstana ixracatı isə 20-40 milyon dollar təşkil edir. Beşincisi, ticarətlə yanaşı Azərbaycanda qazax şirkətlərinin və Qazaxıstandakı Azərbaycan şirkətlərinin iştirakı ilə layihələrin qiymətləndirilməsi maraqlıdır. Köhnəlmiş və dövrü keçmiş stereotipləri qırmaq lazımdır.

Biz, qazaxıstanlılar, aydın başa düşməliyik ki, indi azərbaycanlı inşaatçılar, xüsusilə də yüksək seysmik aktivliyi olan ərazilərdə necə yaxşı tikinti aparmağı bilirlər. Məsələn, Nur-Sultanda "Caspian Service" şirkəti Azərbaycan layihələri əsasında bir neçə yaşayış kompleksi tikib. Mənim doğma Aktobe vilayətində tanınmış Azərbaycan şirkəti "AzVirt" yolların tikintisində iştirak edir. Hamı bilir ki, Azərbaycanda pilotsuz uçan aparatlar yığılır. Azərbaycan Qazaxıstan üçün ekzotik sayılan meyvə və tərəvəzləri yetişdirməyə imkan verən doqquz iqlim tipi olan misilsiz ölkədir. Azərbaycan sənayesinin imkanları haqqında sonsuz danışmaq mümkündür. Qazaxıstan da öz növbəsində, azərbaycanlıların kifayət qədər yaxşı bilmədiyi ağır və neft mühəndisliyi, heyvandarlıq, qoyunçuluq, kimya sənayesi və digər qədim ənənələrinə malikdir.

Bir-birimizi tamamlaya bilmək üçün bir-birimizi mütəmadi şəkildə tanımalıyıq, bir-birimizə daha tez-tez baş çəkməliyik, vergi və gömrük qanunvericiliyi, sığorta, pensiya sistemlərini uyğunlaşdırmalı, standart və qaydaları birləşdirməliyik. Ölkələrimiz arasındakı inzibati və digər maneələrin aradan qaldırılması üçün işləmək lazımdır.

***- Bildiyiniz kimi, ötən il Azərbaycan üçün tarixi olub - ölkə çoxdan gözlənilən ədaləti və ərazi bütövlüyünü bərpa edib. Artıq azad edilmiş ərazilərdə bərpa işlərinə başlanılıb. Qazaxıstan şirkətlərinin də bu prosesdə iştirak etməyə dəvət olunduğunu bilirik. Qazaxıstan biznesinin nümayəndəsi olaraq, Qarabağın bərpasında iştirak etməkdə maraqlısınızmı və bu gün nə təklif edə bilərsiniz?***

- Azərbaycan xalqını qələbə və torpaqlarının azad edilməsi münasibətilə təbrik etməkdən şadam! Həlak olan şəhid ailələrinə başsağlığı verirəm. Təsadüfən tarixi hadisələrin şahidi oldum. Bulvara yaxın yaşayırdım və hər şey gözümün qabağında oldu. Avqustda, səhər saat 5-də qərb tərəfə doğru irəliləyən hərbi texnikanın gurultusu məni oyatdı. Qurtuluş müharibəsi 27 sentyabrda başladı, Şuşa 8 noyabrda azad edildi və 10 noyabr, səhər saat 4-də bütün Bakı sevinc içində idi: zəfər qazanıldı və 10 dekabrda Zəfər paradı keçirildi. İşğaldan azad olunan ərazilərdə çəkilən videolara baxarkən Azərbaycanın bu torpaqları bərpa etmək üçün görəcəyi çox böyük işlər barədə düşündüm. Aydındır ki, biz qardaş xalqlar bu işdə kənara qalmamalı idik. Mən Qazaxıstanın Azərbaycandakı Səfirliyinə şirkətimin azad olunmuş ərazilərin bərpasında Qazaxıstanın tərəfdaş şirkətləri ilə iş birliyi çərçivəsində iştirak etməsi ilə bağlı təkliflərdən ibarət məktub göndərdim. Realist olmaq lazımdır: Türkiyənin Azərbaycanın azad edilmiş ərazilərinə yaxınlığı və inşaat sahəsindəki səlahiyyətləri danılmazdır.



*Şuşanın təhlükəsizlik sistemləri sahəsində dizayn təcrübəmizi təklif edirik*

Bu səbəbdən ciddi şəkildə irəli getdiyimiz sahələrdə öz səlahiyyətlərimizə və təcrübələrimizə əsaslanmalıyıq: iqtisadi sahələrin rəqəmsallaşdırılması, o cümlədən yerin məsafədən zondlama kosmik sistemləri, geoinformasiya texnologiyaları, bərpa olunan enerji mənbələri. Bundan əlavə, Qazaxıstan biznesinin informasiya texnologiyaları, təhlükəsizlik və "Smart City" (Ağıllı Şəhər) konsepsiyası sahəsində rəqabət imkanları barədə ətraflı danışdım. Yeri gəlmişkən, bu barədə tapşırıqları bu il yanvarın 26-da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yeni nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyevə səsləndirib:

"...Şəhərlər və kəndlər azad edilmiş ərazilər "smart-city", "smart-village", yəni "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında qurulmalıdır". Bu sahədə rəqabətə davamlı və gərəkli ola bilərik.

***- Məsələn, digər ölkələrin şirkətlərindən fərqli nələri təklif edirsiniz?***

- Şuşa şəhərinin inkişafı üçün keçiriləcək tədbirləri nəzərə alaraq, şəhər və strateji obyektlər üçün təhlükəsizlik sistemləri sahəsindəki dizayn təcrübəmizi nəzərdən keçirməyi təklif edərdik.

Bu konsepsiya şəhərin və bölgənin intellektual video müşahidə və cavab tədbirlərinə əsaslanan inteqrasiya olunmuş əməliyyat idarəetmə sistemini əhatə edir. Bura insan və nəqliyyat vasitələrinin skan edilməsi üçün avadanlıq sistemləri, terminal kameralar, intellektual video nəzarət, üz tanıma sistemləri, giriş nəzarəti və idarəetmə sistemləri, hadisələrin təhlili və sair daxildir.

***- Burada olduğunuz iki ildə Azərbaycanın digər bölgələrini gəzib, iş qurmaq üçün yeni imkanlar aradınızmı?***

- Əlbəttə. Azərbaycanda turizm əhəmiyyətli dərəcədə iş yeri mənbəyi və ayrıca bir sahəyə çevrilə bilər. Burada turizmin rəqəmsallaşdırılması, marşrutların və görməli yerlərin vizuallaşdırılması üçün imkanlar var. Şamaxı Astrofizika Rəsədxanasına baş çəkəndə hava və günün vaxtı teleskopla ulduzları müşahidə etməyə imkan vermədi. Ora mənim kimi çox sayda turist gəlir və çox vaxt mənim kimi təəssüflənərək qayıdır. Fikrimcə, Nəsirəddin Tusi özü öz məlumat bazasından istifadə edərək burada bir planetariya tikməyi əmr edərdi. Yeri gəlmişkən, onsuz da tarixi olan teleskopların müasirləşdirilməsinə baxmayaraq, biz birlikdə rəsədxananın rəqəmsallaşdırılmasından başlayaraq unikal planetariy avadanlıqlarına qədər yeniləmə proqramını hazırlaya bilərik.

Qazaxıstanda Okeanarium, Cəngəllik və digər şəhərləri əhatə edən əyləncə kompleksinə rəhbərlik edirdim. Yeri gəlmişkən, Nur-Sultandakı Okeanarium dənizdən ən uzaq bu cür obyekt olması ilə unikaldır. Təbii ki, sual məni maraqlandırdı, Bakıda, dəniz şəhərində Okeanarium varmı? Nəhayət, çöllərdə bizim üçün böyük bir xərc maddəsi, onlarla ton dəniz duzu aldığımız dəniz suyunun hazırlanması idi.

Bakıda dəniz suyunu hazırlamaq üçün yalnız təmizlənməsi lazımdır. Bildiyim qədər Okeanarium layihəsi Moskvada, Krasnoqorskda Crocus Group tərəfindən həyata keçirilib. Sayta baxdıqda, əla layihədir, investorlar çox şey qazandılar və ən əsası "entertainment" əyləncə formatı gündəmə gəldiyi bir vaxtda riteylin yeni reallığında bu layihənin necə daha da inkişaf edə biləcəyini görürəm. Bakının şəhər təsərrüfatı metro və liftlər daxil olmaqla nəqliyyat kommunikasiyaları və mexanizmlərini özündə cəmləşdirən çox mürəkkəb bir orqanizmdir.

Güclü rejimdə işləyən və aşınmaya məruz qalan avadanlıqlar üçün monitorinq sisteminin rəqəmsallaşdırılması böyük əhəmiyyət kəsb edir. Təmir siqnallarına cavab verməkdən mexanizmlərin, avadanlıqların aşınmasının və sıradan çıxmasının qarşısını almaq lazımdır.

Bunun üçün hər bir mexanizmin istehsalından son yağ dəyişikliyinə qədər maksimum detallara qədər rəqəmsal tarixçəsi gərəklidir. Belə bir ideya sifarişlər üçün kağız daşıyıcısından, mexanikdən tutmuş birinci rəhbərədək planşetə və smartfona ötürülməlidir. Ağıllı şəhərin və ya ağıllı kəndin əsl sahibi planşetində bütün rabitə, şəhərin 3D layihəsi, video təhlil və üz tanıma sistemi olan istənilən video kameraya giriş əldə edəcək. Şəhər sahibi dərhal risklər və təhdidlər haqqında məlumat almalı və dərhal cavab verməlidir.

*✍ Vüsal Tağıbəyli*

## Hüquq



# Vəkillərin ödədiyi vergi yüksəkdir

**Məhkəmə prosesində, istintaqda və təhqiqatda hər bir vətəndaşa hüquqlarını qorumaq haqqı verilir. Belə olan halda ümidlər qalır mantıyalı qəhrəmanlara... Bu gün ölkəmizdə ali hüquq təhsilli, hüquqşünas ixtisas üzrə üç ildən az olmayaraq iş stajı olan və ya elmi və pedaqoji təhsil müəssisələrində hüquq sahəsində fəaliyyət göstərən, İxtisas Komissiyasında müvəffəqiyyətlə imtahan verən şəxs vəkil ola bilər.**

Hazırda ölkədə 2000-ə yaxın vəkil fəaliyyət göstərir. Son illərdə vəkillər və vəkillik fəaliyyəti haqqında qanunda bir sıra əlavələr və dəyişikliklər olub. Nəzərə alsaq ki, il yeni başlayıb, o zaman elə 2021-də də bu sahədə yeniliklər gözləmək olar.

Hafta.az ölkədə vəkillik fəaliyyətini dəyərləndirmək, peşə ixtisaslaşması, vəkillərin aldığı məvacib və digər məsələlərlə bağlı məlumat almaq üçün elə bu peşənin öz sahibinə müraciət etdi.

**■ Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Əkrəm Həsənov söylədi ki, vəkillik fəaliyyəti haqqında qanun hal-hazırda günün tələbinə cavab verir. Xüsusən də son illərdə burada xeyli dəyişiklik olub. Buna baxmayaraq, vəkillərin ödədiyi vergi hələ də yüksəkdir:**

"Fikrimcə, vəkillərin ödədiyi vergi ilə bağlı bir neçə dəyişikliyə ehtiyac var. Bu gün vəkillərin ödədiyi vergi, fərdi sahibkarın ödədiyindən çoxdur. Ölkə vətəndaşları gəlir vergisindən 7 il ərzində azaddırlar. Beləcə, onlardan 14% vergi tutulmur. Fərdi sahibkarların bir qismi sadələşdirilmiş vergi ödəyir - 2%. Əgər fərdi sahibkar hüquqi şəxslərlə işləyirsə, o da mikrosahibkarlıq subyekti kimi, 5% ödəyir. Biz vəkillər isə 14% vergi ödəyirik. Dövlət Sosial Müdafiə Fonduna sosial sığorta haqqı ötən il vəkillər üçün 10%-ə endirildi. Fərdi sahibkarlarda isə daha əvvəldən elə bu məbləğ təxmini 30 manat civarında idi. Məni maraqlandıran məqam odur ki, niyə vəkillərin fəaliyyəti fərdi sahibkarlıq sahəsi kimi qəbul edilmir. Belə baxanda heç bir qurum bizə maaş ödəmir. İstərdim ki, bu istiqamətdə dəyişikliklər olsun. Vəkillərin vergi yükü onsuz da əvvəl-axır vətəndaşların çiyinlərinə düşür. Vəkil o məbləği ödəmək üçün gərək vətəndaşdan çox pul alsın".

Əkrəm Həsənovun sözlərinə görə, ixtisaslaşdırılmış vəkillik çox yaxşı şeydir. Mən hər işə çıxan vəkili bir qədər anormal qarşılayıram: "Yəni ki, heç bir vəkil qanunvericiliyin bütün sahələrini bilə bilməz, ən azından, yaxşı bilməz. İxtisaslaşmanı qanunla həyata keçirmək mümkün deyil. Bu ancaq praktikada müəyyən edilə bilər. Belə olan halda, həmin vəkilin xidmət haqqı da qalxır.

Çox zaman vətəndaşlar işin keyfiyyətinə yox, qiymətinə baxırlar. İnkişaf etmiş ölkələrdə vəkillər daim öz üzərlərində işləyirlər. Avropada ildə bir neçə məqaləsi çıxmayan hüquqşünası orada ciddi qəbul etmirlər. Bizdə isə demək olar ki əksəriyyət bunu edə bilmir".

Mütəxəssis vəkillərin gördükləri işləri insanların obyektiv qiymətləndirdiyini düşünür: "Ola bilər ki, vəkil öz işini yüksək səviyyədə görür, lakin məhkəmələr qanunsuzluq edir. Mənə deyiləndə ki, "Filan vəkil yaxşıdır, tanınmışdır", sual verirəm ki, "Bunu necə qiymətləndirirsiniz?". Düşünürəm ki, Azərbaycanda bir vəkili udduğu işlərlə qiymətləndirmək olmaz.

Biz burada vəkilin biliyi və savadına dəyər veririk, yoxsa müştəri ilə hakim arasında vasitəçiliyinə? Bütün bu amilləri nəzərə almaq lazımdır. 2019-cu il aprelin 3-də Prezident sərəncam verdi. Burada tövsiyələrdən biri o idi ki, vəkillərlə hakimlər arasında qeyri-prosessual münasibətlər olmasın. Bu münasibətlərin varlığı prezident səviyyəsinə qədər çıxıb".



**Əkrəm Həsənov,**
Vəkillər Kollegiyasının üzvü, hüquqşünas

Hüquq müdafiəçisi qeyd edir ki, dövlətin təyin etdiyi vəkillər, fərdi fəaliyyət göstərən vəkillərin aldığı məvacibdən qat-qat aşağı əməkhaqqı alır. Onu da əlavə etdi ki, göstərilən amil heç bir halda vəkilin öz işinə məsuliyyətsiz yanaşmasına səbəb olmamalıdır:

*"Çox zaman vətəndaşlar işin keyfiyyətinə yox, qiymətinə baxırlar*

"Vəkil var ki, adına görə işinə məsuliyyətli yanaşır. Onun üçün dövlət hesabına və yaxud özəl qaydada iş aparmasının fərqi yoxdur. Əvvəllər dövlət hesabına iş aparan vəkilin 1 saatına 2 manat ödənirdi, indi bu, 6 manata qədər qaldırılıb. Öncədən vəkil bu pulu ümumiyyətlə ala bilmirdi, hazırda Vəkillər Kollegiyası işi daha yaxşı qurub. Yenə də istənilən halda vəkil gördüyü işdə pulu rəhbər tutmamalıdır.

Vəkilin fərdi olaraq qazandığı məvacib isə görülən işdən asılıdır. Ortalama götürdükdə dövlət hesabına verilən puldan dəfələrlə çoxdur. Bəzən vəkillər aldıqları məvacibi rəsmi olaraq düzgün göstərmirlər. Bu da təbii ki, tutulan vergi ilə əlaqədardır. Digər xoşagəlməz hal da elə bununla bağlıdır". Gördüyünüz kimi, bəzi hallarda vəkillər özləri də haqsızlığa uğrayan tərəf olurlar.

*✍ Banu*

# Şəhid valideynləri əməliyyat edildi

**"YAŞAT" Fondu tərəfindən şəhidlərimizin ailə üzvlərinin tibbi ehtiyaclarının ödənilməsi ilə bağlı işlər davam etdirilir.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən hafta.az-a verilən məlumata görə, şəhidimiz Şamil Hüseynlinin atası Novruz Hüseynov, şəhidimiz Cəsarət Səfərovun anası Nuriyyə Səfərovanın, şəhidimiz Məhəmməd Səmədovun qardaşı Bəylər Səmədovun, şəhidimiz Zəbiyulla Məmmədovun anası Aynurə Məmmədovanın əməliyyat xərcləri Fond tərəfindən qarşılanıb. Müvafiq müayinə və müalicə tədbirləri davam etdirilir. Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədi ilə yashat.gov.az portalı istifadəyə verilib.

# "Nar" sosial izolyasiya dövründə təhsilə dəstək olmağa davam edir

**Ölkədə təhsilin inkişafına xüsusi önəm verən "Nar" pandemiya dövründə də alternativ kanallarla təhsilinə davam edən tələbə və şagirdlərə öz dəstəyini göstərir.**

Belə ki, mobil operator Azərbaycan Respublikası Təhsil Nazirliyinin xüsusi layihəsi olan və sosial izolyasiya dövründə internetə çıxışı məhdud olan şagirdlər üçün TV üzərindən canlı dərslər yayımlayan "Dərs vaxtı" proqramını rabitə dəstəyi ilə təmin edir. Proqramda məktəbdə keçirilən bütün fənlərin televersiyası nümayiş olunur və bu teledərslər şagirdlərə ölkənin istənilən yerindən ən təcrübəli müəllimlərin izahı ilə mövzuları öyrənmək üçün unikal imkan yaradır. Dərsləri həftəiçi hər gün "Mədəniyyət" və "ARB Günəş" telekanallarında izləmək mümkündür. Gündəlik dərs cədvəli ilə burada tanış ola bilərsiniz.

Xatırladaq ki, "Nar" pandemiya dövründə təhsilin davamlılığına dəstək məqsədilə sərfəli "TƏHSİL+" internet paketini təqdim edib ki, bu da şagird və tələbələrin, eləcə də müəllimlərin onlayn dərslərə daha rahatlıqla qoşula bilməsinə imkan yaradır.

## Reportaj

### Qazilərlə söhbət

■ **Ziya Kazımov, 31 yaşlı qazi:**

- 29 sentyabr Goranboy rayonunun Gülüstan kəndi istiqamətində gedən döyüşlərdə mina partlaması nəticəsində ayağımdan yaralanmışam. Yoldaşlarım məni döyüş meydanından çıxarıb tibb məntəqəsinə təxliyyə etdilər. Daha sonra, helikopterlə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Klinikasına yerləşdirildim. Müalicəmi orada davam etdirdim. Şükürlər olsun, bu gün hər şey yaxşıdır, protezlə təmin edildim.



***- Nə vaxtdan buradasınız?***

- 3 gündür ki, buradayam. Protez bu gün taxılıb.

***- Özünüzü necə hiss edirsiniz?***

- Özümü çox rahat hiss edirəm. Buna görə də ilk növbədə, Ali Baş Komandanımıza təşəkkür edirəm. Vətənimizin keşiyində dayanmağa hazıram, ayağım artıq yerindədir.

■ **Növbəti müsahibimiz 19 yaşlı qazi Musayev Kənandır:**



***- Kənan, döyüş yolunuz və yaralanmağınız haqqında məlumat verərdiniz...***

- Cəbhənin Suqovuşan istiqamətində gedən döyüşlərdə yaralanmışam. İlk əməliyyatım Naftalanda yerləşən tibb müəssisələrinin birində olub. Ardınca Mingəçevir Mərkəzi Xəstəxanasında iki dəfə - alimdən və ayağımdan əməliyyat keçirdim.

***- Protezlə nə vaxt təmin olundunuz və indi özünüzü necə hiss edirsiniz?***

- Üç gündür protezlə təmin edilmişəm, özümü rahat hiss edirəm.

***- Müalicəniz nə qədər davam edəcək?***

- İlk dəfə gələndə, burada 1 ay müddətində qalacağım deyilmişdi. Bu ayın 18-i, İnşallah, çıxıram.

■ **44 yaşlı Bədəl Mürsəlov da gün protezlə təmin edilən qazilərimizdəndir:**



- 21 sentyabrda hərbi səfərbərliklə ehtiyatda olan zabit kimi döyüşlərə çağırıldım. Sentyabrın 27-si başlayan əks-hücum əməliyyatlarına, cəbhənin Füzuli və Cəbrayıl istiqamətindən artilleriyaçı kimi qoşuldum.

Qızğın döyüşlərin başlandığı ilk gündən müzəffər ordumuzun irəliləyişi mövqelərimizi dəyişdirdi. Elə yerdəyişmə edən zaman mina partlaması nəticəsində sol ayağımı itirdim. Ardınca Füzulidə Diaqnostika Mərkəzindən başlayaraq, bir neçə fərqli tibb müəssisəsində müalicə almışam.

***- Bəs protezlə nə vaxt təmin edildiniz? Rahat hərəkət edə bilirsiniz?***

- Protez cəmi 1 sutkadır taxılıb. Sağ ayağımda da əməliyyatlar olduğu üçün bir qədər ehtiyatlı olmalıyam. Elə buna görə də hələlik, çəltiklə gəzirəm. Yəqin ki, yaxın günlərdə sərbəst şəkildə yeriyə biləcəyəm. Hazırda vəziyyətim əladır. Dörd ay ayağa durmayan adam bu gün yeriyə bilir. Bu bizim hər birimiz üçün çox sevincli haldır. Proseslərdə daim dövlətin dəstəyini hiss etmişik. Hər şeyə görə Ali Baş Komandanımıza və həkimlərimizə öz minnətdarlığımı bildirirəm.



# Qazilərimiz müasir protezlərlə təmin edilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Vətən Müharibəsi qazilərinin yüksəktexnologiyalı protezlərlə təminatı davam edir. Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində müharibədə yaralanmış daha üç qazimiz - Ziya Ağami oğlu Kazımov, Rəşad Amin oğlu Əliyev və Kənan Nadir oğlu Musayev yüksək texnologiyalı protezlərlə təmin ediliblər. Hafta.az-ın əməkdaşı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez Ortopedik Bərpa Mərkəzində bu prosesin necə həyata keçirildiyini izləyib. Burada sağlamlığını itirmiş vətəndaşlar üçün yaradılmış vəziyyətlə də tanış olduq, qazilərimizlə söhbət apardıq.**

### Protezlər son texnologiyalar əsasında hazırlanır

**Qazilərimizlə həmsöhbət olduqdan sonra mərkəzlə tanışlığa keçirik.** Burada protezlərin hazırlanması prosesini izlədik. Ardınca Protez Ortopedik İstehsalat və Reablitasiya Mərkəzinin rəhbəri Asif Məcidovla söhbət apardıq. O deyir ki, bu gün istehsalatına başlanılan protezlər funksionallıq etibarilə ən son texnologiyalar əsasında hazırlanır.

"Əsas etibarilə dizüstü və dizdənaşağı protezlər hazırlanır. Bəzi dizüstü protezlərdə elektron diz oynaqları nəzərdə tutulub. Əgər mexaniki diz oynaqları orqanın funksionallığının bərpasının 60%-ni həyata keçirə bilirdisə, artıq elektron diz oynaqları bu funksiyanı 90% bərpa edə bilir. Bu gün nümayiş etdirdiyimiz protezlər dizdən aşağıdır. Onlar aktiv vakuum, vakuum sistemi və silikon içliklər əsasında hazırlanmışdır. İstifadə müddətləri pasiyentə bağlıdır, lakin normal halda quraşdırılmış protezlərin xarakteristikasından asılı olaraq, 2 ildən 5 ilə qədər dəyişə bilir".





**Gülnar Əzizova,**
Dövlət Tibbi-sosial Ekspertiza və Reabilitasiya Xidmətinin mətbuat katibi

### Mərkəzin hazırkı fəaliyyəti və qəbul qaydaları

**Dövlət Tibbi-sosial Ekspertiza və Reabilitasiya Xidmətinin mətbuat katibi Gülnar Əzizova mərkəzlə bağlı suallarımızı cavablandırdı.** Onun sözlərinə görə, ilkin mərhələdə Sumqayıt, Şəki, Şirvan, Naftalan və Yevlax rayonlarında fəaliyyət göstərən reabilitasiya mərkəzlərində əlilliyi olan şəxslərin reablitasiyasına start verilib:

"Hazırda pandemiya ilə əlaqədar bərpa müalicəsi yarımçıq qalmış, əlilliyi olan şəxslər qəbul edilir. Daha sonra mərhələli şəkildə digər reabilitasiya potensialı yüksək olan şəxslərimizi də qəbul edəcəyik". Qurum rəsmisi bildirir ki, reabilitasiya mərkəzlərində bərpa müalicəsi almaq üçün ilkin şərt əlillik dərəcəsinin olmasıdır:

"Rəsmi əlillik statusu olduğu halda, bütün vətəndaşlarımız üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bərpa mərkəzləri açıqdır. İlkin mərhələdə vətəndaş hansı reabilitasiya mərkəzində bərpa müalicəsi almaq istəyirsə, tibbi sosial ekspert komissiyasının arayışları, əlilliyi və şəxsiyyəti təsdiq edən sənədlərlə birgə müraciət edib, növbəyə yazılır.

Hər bir reabilitasiya müəssisəsində əlilliyi olan şəxslər və sağlamlığı məhdud olan uşaqlar növbəli əsaslarla qəbul edilir. Nəzərə alsaq ki, hazırda ölkəmizdə 600000-dən çox əlilliyi olan vətəndaş var. Təbii ki, onların hər biri bu xidmətlərdən yararlanmaq istəyir. Elə bu səbəbdəndir ki, qəbulda növbəlilik prinsipinə əməl olunur". G.Əzizova xəstəliklərin reabilitasiya müddətinin hər biri üçün fərdi olduğunu söylədi. Onu da əlavə etdi ki, reabilitasiya müddəti xəstənin xarakteristikasından, cari vəziyyətindən asılıdır. Sağlamlıq imkanları məhdud olan şəxs Reabilitasiya Mərkəzinə daxil olarkən öncə rebilitoloqların qəbulundan keçir:

"Onların xəstəliyinin xarakteristikasına uyğun olaraq kurslar təşkil edilir. Hər bir xəstəyə individual yanaşma mövcuddur.

Bütün reabilitasiya mərkəzlərində bərpa müalicəsi alan, əlilliyi olan hər bir şəxsin qidalanması mərkəz tərəfindən təşkil edilir. Onların qidalanma rejimləri dövlət tərəfindən təmin edilir. Bundan başqa, pandemiya ilə əlaqədar, bütün reabilitasiya mərkəzlərində sanitar-gigiyenik qaydalara əməl olunur.

### Yeri gəlmişkən...

**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin rəhbəri Cavid Əbdul-Qədirov mətbuat konfransı keçirib. Bildirib ki, bu il ərzində 4 müasir reabilitasiya və xidmət mərkəzi açılacaq.**

Bundan başqa, ötən il əlilliyi olan 11 344 şəxsin, o cümlədən, müharibə ilə əlaqədar əlilliyi olan 1 648 şəxsin protez-ortopedik bərpa xidməti ilə təmin olunduğunu qeyd edib: "Ümumilikdə əlilliyi olan şəxslərə 35 000 reabilitasiya vasitəsi verilib".

C.Əbdul-Qədirov, postmüharibə dövründə də qazilərimizin ehtiyaclarına uyğun reabilitasiya vasitələri, sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin olunduqlarını vurğulayıb.

✍ Banu

# "Uşaq Qaynar Xətt" xidmətinə 6 657 müraciət daxil olub! (R)

**Cəmiyyətimizin ən həssas, ən çox qayğı və diqqət tələb edən təbəqəsi uşaqlardır. Ölkəmizin parlaq gələcəyi üçün uşaqların sağlam mühitdə, qayğısız və problemsiz böyümələrini təmin etməliyik. "Azercell"in dəstəyi ilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidməti koronavirus pandemiyasının (COVİD-2019) nəticəsi olaraq elan edilmiş qlobal sağlamlıq böhranı dövründə gücləndirilmiş iş rejimində çalışaraq ötən il 6657 uşağa yardım edib.**




On ildən artıqdır ki, fəaliyyət göstərən "Uşaq Qaynar Xətti" müxtəlif təzyiqlə üzləşən, hüquqları pozulan uşaq və yeniyetmələrə dəstək olub onları psixoloji və fiziki travmalardan qorumağa çalışır. Xidmətin əməkdaşları uşaqlara və övladları ilə bağlı müəyyən problem yaşayan ailələrə həm sosial xidmət göstərir, həm də hüquqi və psixoloji yardım edir.

Qaynar xəttə daxil olan müraciətlər müxtəlif sahələri əhatə edən sual və problemlər ilə bağlı olur. Ötən il zənglərin bir çox hissəsi - 3 602 müraciət təhsil sahəsi ilə əlaqədar olub. Xidmətə hüquqi sahə ilə bağlı 909, psixoloji problemlərlə bağlı 668, sosial sahəyə aid 501, səhiyyə sahəsi ilə bağlı 388 müraciət daxil olub. Zənglərdən 589-u digər sahələrə aiddir.

Qeyd edək ki, 2020-ci ildə xidmətə müraciət edən qızların sayı üstünlük təşkil edib ki, zənglərin 3494-ü qızlardan, 3129-u isə oğlanlardan daxil olub. Bu müraciətlərdən 5499-u 18 yaşdan yuxarı, 1124-ü isə 18 yaşdan kiçik vətəndaşlar tərəfindən daxil olub. Həmçinin 2020-ci il ərzində 34 anonim zəng qeydə alınıb. Azyaşlı uşaqlarla bağlı zənglərin əksəriyyəti əvvəlki illərdə olduğu kimi, yenə də əksər hallarda hüquqi problemlərlə əlaqədar olub. Bura boşanan valideynlərin övladlarını görməkdə çətinlik çəkməsi, uşaqlarda yaranan psixoloji problemlər və digər məsələlər daxildir.

2020-ci ildə COVID-19 pandemiyası ilə əlaqədar olaraq böyüklərlə yanaşı, azyaşlı və yeniyetmələrdə də bir sıra psixoloji problemlər yaranıb. Daxil olan müraciətlərin əksəriyyəti pandemiyanın yaratdığı gərginlik və fobiyalar, eləcə də onlayn təhsil ilə bağlı olub. Müraciət edənlərə əsasən telefon vasitəsilə psixoloji yardım göstərilib, ehtiyac yarandığı təqdirdə isə karantin qaydalarına uyğun olaraq, fərdi və qrup terapiyaları həyata keçirilib. Ötən ilin sonunda yaşadığımız Vətən müharibəsi ilə bağlı da "Uşaq Qaynar Xətt" xidmətinə bir çox müraciətlər daxil olub. Xüsusilə regionlardan- Ağdam və Gəncə bölgələrindən evlərini itirən, yaxınlarını itirmə qorxusu yaşayan, stress və travmaya məruz qalan uşaqlarla uğurlu reabilitasiya işləri aparılıb. İl ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə paytaxt Bakı daxil olmaqla, ölkəmizin müxtəlif bölgələrindən müraciət edilib. Xidmətə Ağdam, Ağdaş, Zərdab, Goranboy, Göyçay, Şəki, Şamaxı, Gəncə, Qazax, Tovuz da daxil olmaqla 44 rayondan zənglər daxil olub. Hətta Azərbaycan hüdudlarından kənarda yaşayan soydaşlarımız da müəyyən problemlərlə bağlı xidmətə müraciət ediblər. Bunların sırasında Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan, Avstriya, Almaniya və Özbəkistandan daxil olan müraciətləri qeyd etmək olar.

Qeyd edək ki, "Ümidli Gələcək Sosial Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü ilə yaradılan və "Azercell Telekom" MMC-nin dəstəyi ilə vətəndaşlara xidmət edən "Uşaq Qaynar Xətti" fəaliyyət dövrü ərzində 48007 müraciət cavablayıb. Mərkəzə daxil olan bütün müraciətlər məsləhətçi-hüquqşünas, psixoloq və sosial işçilər tərəfindən dinlənilir. Zəng edənlərə lazımi məsləhətlər verilir, ehtiyac yarandıqda onlar Uşaq Hüquqları Klinikasına yönləndirilir. Daxil olan müraciətlərin birbaşa xidmət çərçivəsində həll edilməsi mümkün olmadığı hallarda, Qaynar Xətt əməkdaşları müvafiq dövlət qurumları və QHT-lərlə birgə araşdırma aparırlar. "Azərbaycan Uşaq Qaynar Xətti"nə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, elektron poçt, facebook və instagram sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və "uşaqqaynarxetti" mobil əlavəsi vasitəsilə müraciət etmək olar.

### ELAN

**Isayeva Tamara Abdul qızının adına verilmiş AA-001416 nömrəli torpaq sahəsinin plan və ölçüsü (Göyçay rayonu Bığır kəndi) itirildiyi üçün etibarsız sayılır.**

### GÜNÜN FOTOSU



**Braziliyada oksigen balonu növbəsi...**

# Türkiyə-Azərbaycan media platforması

**Aydın Quliyev,**
"Bakı xəbər" qəzetinin baş redaktoru

Bu gün Türkiyə və Azərbaycan medialarının vahid platormada birləşməsinə daha çox ehtiyac var.

▸▸ Səh. 6

### STATİSTİKA



■ İnsanın beynin əsəb impulsu saatda 274 kilometr sürətlə hərəkət edir.

■ İnsan ürəyi orta hesabla fəaliyyətdə olduğu dövr ərzində 182 milyon litr qan vurur.

■ İnsan yatarkən gördüyü yuxuların 98 faizini sonradan xatırlamır və tamamilə unudur.

■ İnsan ömür boyu orta hesabla 17 Terabayt informasiyanı yadda saxlayır.



▸▸ Səh. 7

# Vəkillərin ödədiyi vergi yüksəkdir